QARABAĞ AZƏRBAYCANDIR!

# Səs

№ 190 (6631) 18 oktyabr 2022-ci il. Qiymәti 60 qәpik

**Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın xalqımıza qarşı törətdiyi terror aktları ilə bağlı paylaşım edib**



3

## Azərbaycanın beynəlxalq aləmdə sözü imzası qədər dəyərlidir



2

**Bu, Prezident İlham Əliyevin beynəlxalq miqyasda yüksək nüfuzunun göstəricisidir**

# Dünya erməni vandalizminə və terroruna qarşı susmamalıdır!



**Azərbaycan xalqı da məhz bu addımları gözləyir!**

13



6

## 18 Oktyabr - Azərbaycan dövlət müstəqilliyinin bərpa olunduğu tarixi gün

**Xudafərin körpüsündə 27 il sonra ucaldılan Azərbaycan bayrağı**



3

**Əqidəli, peşəsinə sədaqətli, cəsarətli jurnalist**



5

**"El-Klassiko"da 106 ilin rekordu**



16

**Diqqət: Pensiyalar bu qaydada artırılacaq**



**Adnan Fişenk: "Edilliдə aşkarlanmış kütləvi məzarlığı görəndə dəhşətə gəldim"**



# Azərbaycanın beynəlxalq aləmdə sözü imzası qədər dəyərlidir



## Bu, Prezident İlham Əliyevin beynəlxalq miqyasda yüksək nüfuzunun göstəricisidir

Son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzun onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Təsadüfi deyil ki, BMT, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Belə ki, dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin quruma sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Eyni zamanda, Qoşulmama Hərəkatına sədrlik Azərbaycana xüsusilə COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal rol oynamağa imkan yaradıb. Əlbəttə ki, bu prosesdə Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi də mühüm rol oynayıb. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu".

Hərəkatın 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısını və həmin ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını xüsusi qeyd olunmalıdır. Çünki Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi "peyvənd milletçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizə aparıb. Azərbaycan Qoşulmama Hərəkatının adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin olunması ilə bağlı qətnamə irəli sürüb və həmin qətnamə 2021-ci ilin mart ayında yekdilliklə qəbul edilib. Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişə ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmasını göstərmək olar".Qoşulmama Hərəkatı ölkələrinin ölkəmizə tam etimadının nəticəsidir ki, üzv dövlətlərin yekdil rəyinə əsasən, Azərbaycanın təşkilata sədrliyi daha bir il uzadıldı. Bu, bir daha onu göstərir ki, Azərbaycan təşkilatın fəaliyyətini mühüm töhfələr verir.Qoşulmama Hərəkatından əlavə, Azərbaycan 2019-2021-ci illərdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da uğurla sədrlik etdi. Ölkəmiz sədrliyi dövründə türkdilli ölkələr arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərdi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Türk Dövlətləri Təşkilatına (TDT) çevrilərək beynəlxalq təşkilat statusunu qazanması, Türk dünyasının iki mühüm ideya və hərəkətverici gücünün - Azərbaycanın və Türkiyənin uzun illərdən bəri həyata keçirdikləri siyasətin, gərgin əməyin bariz nümunəsidir.

### Azərbaycan Prezidenti İlham Əliyevin sammitə dəvət olunması dövlət başçısının beynəlxalq miqyasda yüksək nüfuzunun göstəricisidir

Son vaxtlar Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrində dinamizm müşahidə olunur. Xüsusilə də, Mərkəzi Asiya ölkələri arasında Qırğız Respublikası ilə münasibətlərə də böyük önəm verir.Bu il Mərkəzi Asiya ölkələri ilə münasibətlərin intensivləşməsinin şahidi oluruq. Qırğızıstan və Qazaxıstan prezidentlərinin Azərbaycana, Azərbaycan Prezidentinin Özbəkistana, Türkmənistana və Qırğızıstana səfərləri və əldə edilmiş razılaşmalar əlaqələrimizin gələcək konturlarını müəyyən edir. Prezident İlham Əliyevin dəvəti ilə Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri ilə iki ölkə arasında münasibətlərin inkişafında yeni dövrün başlanğıcı qoyuldu. Müxtəlif sahələri əhatə edən mühüm sənədlərin imzalanması ilə bundan sonra əlaqələrin inkişafı üçün hüquqi baza formalaşdırıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bişkekdə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclasında bildirib ki, Azərbaycan-Qırğızıstan münasibətlərin belə dinamikası ondan xəbər verir ki, biz qarşılıqlı əməkdaşlıq potensialını artırmaq əzmindəyik: "Əminəm ki, mənim səfərimin yekunlarına dair əldə olunacaq razılaşmalar bir çox sahələrdə əməkdaşlığın dərinləşməsinə kömək edəcək"."Azərbaycan-Qırğızıstan münasibətlərin belə dinamikası ondan xəbər verir ki, biz qarşılıqlı əməkdaşlıq potensialını artırmaq əzmindəyik",- deyən Prezident İlham Əliyev əminliklə bildirib ki, səfərimin yekunlarına dair əldə olunacaq razılaşmalar bir çox sahələrdə əməkdaşlığın dərinləşməsinə kömək edəcək.

### Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışı rəmzi məna daşıyır

"Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışı rəmzi məna daşıyır. Bizim ölkəmizə və xalqımıza belə münasibətə görə Qırğızıstan Prezidentinə bütün Azərbaycan xalqı adından minnətdarlıq ifadə etmək istəyirəm. Biz bu parkda, həmçinin Qırğızıstan Prezidentinin xəyallarını, onun şəhərsalma üzrə, Qırğızıstanın digər şəhər və kəndlərinin sakinləri üçün rahat, yaxşı şəraitin yaradılması üzrə planlarını görürük"-deyən Prezident İlham Əliyev onu da bildirib ki, bizim təkcə gündəlikdə duran ikitərəfli məsələləri deyil, həm də bütövlükdə daha geniş mənada planları ətraflı müzakirə etmək, gələcəyə baxışlar barədə danışmaq fürsətimiz old: "Mən Qırğızıstan Prezidentinin Qırğız cəmiyyətinin hara gedəcəyi - sülhə, təhlükəsizliyə, milli köklərə, ortaq türk köklərinə bağlılığı barədə dəqiq anlayışı olduğunu gördüm. Bütün bunlar Azərbaycanda böyük hörmətlə qarşılanır, həmçinin Azərbaycan xalqının dahi övladlarının xatirəsinə göstərilən diqqətə bərabər tutulur".

### Qırğız torpağında bir daha görürəm ki, qardaşlığımız sözdə deyil, əməldədir

"Bu gün mən Qırğız torpağında bir daha görürəm ki, qardaşlığımız sözdə deyil, əməldədir",-deyən Prezident İlham Əliyev vurğulayıb ki, bizim xalqların qardaşlığı şəhərlərimiz arasında qardaşlaşmaya da transformasiya edir. Əminəm ki, bu gözəl ənənə yaşayacaq, Qırğızıstan və Azərbaycanın bir çox şəhərləri qardaşlaşacaq. "Qırğız Respublikası və Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlər fəallaşıb, strateji tərəfdaşlığının tamamilə yeni mərhələsinə qədəm qoyub. Bu, əsasən Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin şəxsi diqqəti və dəstəyi sayəsində mümkün olub". Bu sözləri Qırğızıstan Prezidenti Sadır Japarov Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılış mərasimində deyib. O, dövlətimizin başçısının ölkəmizin milli maraqlarının təmin edilməsinə və müdafiəsinə, onun dünya ictimaiyyəti arasında beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə istiqamətlənmiş geniş qurucu fəaliyyətini xüsusi qeyd edərək bildirib: "Sizin şəxsi diqqətiniz və Qırğızıstanla bütün istiqamətlərdə əməkdaşlığı dərinləşdirmək istəyiniz bizim ölkədə hörmət və dəstəklə qarşılanır. Vurğulamaq istəyirəm ki, bizim üçün zamanın sınağından çıxmış qardaş Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin inkişafı mühüm əhəmiyyət kəsb edir".

### Prezident İlham Əliyev: "Bu əlamətdar hadisələr qardaş ölkələrimiz arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir"

"Bu məktəbə Azərbaycanın görkəmli oğlu Heydər Əliyevin adının verilməsi qərarına görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirirəm. Biz bunu xalqlarımız arasında dostluğun, qardaşlığın rəmzi, Heydər Əliyevin xatirəsinə ehtiram kimi dəyərləndiririk". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılış mərasimində söyləyib."Sadır Nurqojoyeviçin də qeyd etdiyi kimi, bu gün biz daha bir məktəbi, Azərbaycanın digər görkəmli oğlu, Azərbaycan xalqının fəxri olan şairi, mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyacaq məktəbi də ziyarət edəcəyik. Bu əlamətdar hadisələr qardaş ölkələrimiz arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Bəli, göründüyü kimi, Prezident İlham Əliyevin Qırğızıstana səfəri tarixi və strateji əhəmiyyət daşıyır. Bu səfər zamanı aparılan görüşlər, imzalanan sazişlər, müqavilələr və verilən bəyanatlar türk dünyasının birliyinə böyük töhfə verəcək. Son illərdə türkdilli ölkələrin arasındakı əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatması Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın türk dünyası qarşısında tarixi xidmətləridir. Eyni zamanda, Azərbaycan Prezidentinin fəal xarici siyasət kursu ölkəmizin beynəlxalq aləmdə milli mənafeyinin müdafiəsinə yönəlib və konkret nəticələr əldə edib. Bu siyasət müstəqildir və milli maraqların müdafiəsinə söykənir. Məsələyə bu kontekstdə yanaşdıqda Prezident İlham Əliyevin həm Qərb, həm də Şərqi Asiya istiqamətində xarici siyasət vektorlarının ölkəmiz üçün çox böyük siyasi dividendlər gətirdiyi göz qabağındadır. Prezident İlham Əliyevi Qərb dünyasında - Avropada son dərəcə praqmatik Lider kimi qəbul edirlər. Xüsusilə də, Prezident İlham Əliyevin son Praqa danışıqlarındakı diplomatik uğurları heç şübhəsiz ki, Qərbin aparıcı beyin mərkəzlərinin, siyasi liderlərinin, KİV-lərin diqqətindən yayınmır. Təkcə bu istiqamətdə deyil, həm də Asiya istiqamətində Azərbaycan Prezidentinin olduqca çevik xarici siyasət kursu diqqəti cəlb edir. Və Azərbaycan Prezidentinin Qırğıstana səfəri, səfər çərçivəsində imzalanmış sənədlər ticarət-iqtisadi, nəqliyyat, humanitar sahələrdə, kiçik və orta biznesin inkişafı sahəsində, Dövlətlərarası Şuranın fəaliyyətinin genişləndirilməsi nöqteyi-nəzərindən, xarici işlər nazirləri arasında əlaqələrin daha da inkişafı prizmasından olduqca əhəmiyyətlidir. Bir sözlə, bu səfər bir daha onu göstərdi ki, Qərb dünyasında olduğu kimi, Şərq dünyasında - Asiyada da Azərbaycan Prezidentinin şəxsiyyətinə çox böyük inam, ehtiram, etibar var. Qürurverici haldır ki, Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzvü olmadığı təşkilatların da sammit, konfrans və görüşlərinə dəvət alması, həmin tədbirlərdə fəal iştirakı ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisidir. Dünya xəritəsində indi Azərbaycan kimi dövlətlər azdır. Azərbaycanda həyata keçirilən inkişafa yönəlik siyasət nəticəsində ölkəmizin əlverişli geostrateji mövqeyini diplomatik qüdrətimizlə bütün dünyaya qəbul etdirmişik. Azərbaycan şanslıdır ki, onun həm Avropa, həm də Asiyada örnək götürülən dövlət başçısı var.

***RƏFİQƏ KAMALQIZI***

# Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın xalqımıza qarşı törətdiyi terror aktları ilə bağlı paylaşım edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Ermənistanın xalqımıza qarşı törətdiyi terror aktları ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Erməni terrorizminə son! Stop armenskomu terrorizmu! Stop Armenian terrorism!".

# Xudafərin körpüsündə 27 il sonra ucaldılan Azərbaycan bayrağı



**"Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!" Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin 18 oktyabr tarixində özünün rəsmi "Twitter" səhifəsində bildirmişdir.**

Vətən müharibəsinin 22-ci günü. Hər gün qələbə xəbərləri alırdıq. Böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni - Xudafərini öz sahibinə qovuşdurdu. Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü üzərindən də Azərbaycan bayrağı dalğalandırıldı. 44 günlük Vətən müharibəsi Zəfər tariximizi yazaraq, qısa zaman kəsiyində bizləri böyük tarixi qələbəyə apardı. Bu qələbəni qazanmağımız 44 gün ərzində olsa da, bu tarixə qədər Azərbaycan böyük yol keçmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu qələbə sevincini bizlərə yaşatdı. Sentyabrın 27-dən başlayaraq vətən torpaqlarının müdafiəsinə hazır olan Azərbaycan oğulları işğalda olan torpaqlarımızı azad etdilər. Qələbə soraqları hər bir Azərbaycan övladını sevindirirdi. Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzda, əsgərlərimizdə böyük ruh yüksəkliyi yaratmışdı.

## "ORDUMUZ ƏZƏLİ AZƏRBAYCAN TORPAQLARINI İŞĞALDAN AZAD ETMƏKLƏ MİLYONLARLA AZƏRBAYCANLININ ARZULARINI HƏYATA KEÇİRİR"

"Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir". Bu barədə iki il əvvəl 18 oktyabr tarixində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda deyilirdi: "Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir sox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

## DÜŞMƏN ANLAYIR Kİ, ƏDALƏTİN SƏSİ YÜKSƏLİR, SUSMAQ NÖVBƏSİ ONLARDADIR

Həmin zamanda milyonlarla insanlara qələbə sevincini yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə ölkəmizin hər bir yerindən, dünya ölkələrində yaşayan soydaşlarımızdan minnətdarlıq dolu məktublar gəlirdi. "Cənab Prezidentim, Siz Azərbaycan tarixinin ən şanlı zəfərinin banisi kimi böyükdən kiçiyə milyonların qəlbində taxt qurmuş bir qəhrəmansınız" - deyə Kəlbəcər sakini yazırdı: "İllər ərzində apardığınız uğurlu xarici siyasətiniz, qətiyyətli addımlarınız, möhkəm iradəniz nəinki düşməni, hətta onun havadarlarını belə susmağa məcbur edib. Azərbaycan xalqının 27 illik susqunluğunu haqq səsinizlə dünya ictimaiyyətinə çatdırdınız. İndi düşmən anlayır ki, ədalətin səsi yüksəlir, susmaq növbəsi onlardadır. İndi hər kəs anlayır ki, Qarabağ Azərbaycandır. Mən də bir şəhid qardaşıyam, məzarına belə həsrət qaldığım qardaşımın qisasının alındığını gördükcə sanki qəlbimdəki sönməyən alova su çilənir. Ümidvaram ki, neçə belə oğulların uğrunda şəhid olduğu Vətən torpağının hər bir qarışında Sizin rəhbərliyiniz altında şanlı bayrağımız dalğalanacaq. İgidlərin narahat ruhları rahatlıq tapacaq. Eşq olsun Azərbaycan əsgərinə! Eşq olsun məğrur Ali Baş Komandanımıza!". Ali Baş Komandanının rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatlarını xalqımız diqqətlə izləyir, uşaqdan böyüyə bütün xalq Azərbaycan ordusunun, Cənab Prezidentin ətrafında sıx birləşmişdi.

## XUDAFƏRİN MÜHÜM HƏRBİ-STRATEJİ ƏHƏMİYYƏT DAŞIYIR

Cəbrayıl rayonunda yerləşən bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu - IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir. Körpünü inşa etdirən şəxsin adı barədə tarixi mənbələrdə dəqiq yazılı məlumat yoxdur. Araşdırmaçıların çoxunun fikrincə, hər iki körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara "Xudafərin" adı verilib. Araz çayı üzərində salınan iki Xudafərin körpüsündən birincisi "Baş Xudafərin körpüsü" adlanır. Onun uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir.1993-cü ildə mənfur ermənilərin ərazimizə soxulması nəticəsində körpüyə ciddi zərər dəyişmişdir, hazırda körpünün müəyyən hissəsi durur.

Oktyabrın 18-i tariximizə daha bir şanlı gün kimi yazıldı. Cəbrayıl rayonunda yerləşən tarixi Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən Müharibəsində böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu. Bu müjdəli xəbəri Azərbaycan xalqına Prezident, Ali Baş Komandan İlham Əliyev çatdırdı.

*Zümrüd BAYRAMOVA*

## Rəsmi xronika

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verib. Trend-in məlumatına görə, başsağlığında deyilir:

"Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Bartın vilayətindəki mədəndə baş vermiş partlayış nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı. Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm. Allah rəhmət eləsin!"

***

Prezident İlham Əliyev N.N.Ağayevin Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Natiq Nuşravan oğlu Ağayev Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Prezident İlham Əliyev İ.Y.Muxtarovun Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, İlqar Yusif oğlu Muxtarov Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

***

Prezident İlham Əliyev Rəhman Sahib oğlu Mustafayev Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Dövlət başçısının imzaladığı digər sərəncama əsasən, Rəhman Sahib oğlu Mustafayev Azərbaycan Respublikasının Fransa Respublikasında, eyni zamanda Müqəddəs Taxt-Tacda və Monako Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

***

Prezident İlham Əliyev Tural Anar oğlu Rzayevin Azərbaycan Respublikasının Əlcəzair Xalq Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, dövlət başçısının imzaladığı digər sərəncama əsasən, Tural Anar oğlu Rzayev Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında və eyni zamanda Sudan Respublikasında fövqəladə və səlahiyyətli səfiri, Azərbaycan Respublikasının Ərəb Dövlətləri Liqası yanında daimi müşahidəçisi vəzifələrindən geri çağırılıb.

# Diplomatik korpus nümayəndələri Gəncə şəhərinə səfər edib



Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və Baş Prokurorluğun nümayəndələri Gəncə şəhərinə səfər edib. SİA xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Gəncədə raket düşən əraziyə baş çəkiblər, öldürülən günahsız insanların xatirəsinə ehtiram olaraq gül dəstələri düzüblər. Gəncə şəhərinin ballistik raketlərlə hədəf alınmasının il dönümünə həsr olunan səfərdə 36 ölkədən 22-si səfir olmaqla,10 beynalxalq təşkilatın rəmiləri iştirak edir. Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski bildirib ki, 2 il bundan öncə biz bura, Gəncəyə gəlmişdik: "Şəhər atəşə tutulduqdan sonra burada barıtın iyi hiss olunurdu. Ola bilsin ki, 2 ildən sonra barıt qoxusu artıq yoxdur, lakin həmin emosiyalar qalıb, əsasən də həlak olan uşaqların oyuncaqlarını görəndə... Bu emosiyalar daha da artıb. Biz də Azərbaycanın hər gün və əsasən 2020-ci ilin 4-18 oktyabr tarixləri aralığında hiss etdiyi ağrını hiss edirik".

Daha sonra Gəncə şəhər Prokurorluğunda ermənilərin Gəncədə həyata keçirdiyi terror aktı ilə bağlı geniş toplantı keçirilib. Baş prokurorun birinci müavini Elçin Məmmədov qeyd edib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun gücü qarşısında aciz qalan təcavüzkar silahlı birləşmələrinin beynəlxalq qanunvericiliyinin silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq respublikamızın 17 rayon və 3 şəhərinin müdafiə olunmayan əraziləri, yaşayış məntəqələri və silahsızlaşdırılmış zonaları, eləcə də mülki əhalinin sıx məskunlaşdığı məntəqələr, obyektlərin hədəfə alınması nəticəsində 93 nəfər, o cümlədən 11 azyaşlı, 27 qadın qətlə yetirilib, 454 nəfər, o cümlədən 50 azyaşlı, 101 qadın xəsarət alıb. Həmçinin mülki əhalinin yaşadığı və döyüş zonasından kifayət qədər kənar ərazilərə edilən raket hücumları nəticəsində ümumilikdə 14 mindən artıq əmlaka təxminən 47 milyon manat maddi ziyan dəyib. Toplantıda xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmilər də çıxış edib.



# Avropa missiyası Ermənistana nə vəd edir?

Rəsmi İrəvan Aİ missiyasının Azərbaycanla müəyyən olunmamış sərhədlərində fəaliyyətə başlamasına niyə bu qədər böyük ümidlər bəsləyir?

Məlum olduğu kimi, Praqa görüşündən sonra məhz Ermənistanın baş naziri Nikol Paşinyanın təklifi əsasında Avropa İttifaqına məxsus vətəndaş missiyası Azərbaycanla müəyyən olunmamış sərhəd zolağını müşahidə edəcək. Lakin o da məlumdur ki, həmin missiyanın Azərbaycan tərəfində də fəaliyyəti üçün rəsmi Bakıya müraciət olunmuşdu, ancaq Azərbaycan Prezidenti İlham Əliyev qəti olaraq bu təklifi qəbul etmədi və bununla bir daha sübuta yetirildi ki, qalib və müstəqil siyasətini reallaşdıran Azərbaycanın bu kimi missiyalara ehtiyacı yoxdur.

## Ermənistanda Rusiya hərbi bazaları ilə yanaş, Aİ missiyası da olacaq və hər iki cinahın Ermənistanın mövcud hakimiyyəti ilə bağlı kəskin maraq toqquşmaları mövcuddur

Bununla belə, Ermənistanın Aİ missiyasından nə umduğu da bəzi məqamları üzə çıxarır. Misal üçün, fakt budur ki, missiyanın fəaliyyəti Ermənistanın bağlanmayan qapı obrazını üzə çıxarır. Daha dəqiq desək, bu ölkənin gah bu, gah da digər istiqamətlərə doğru yıxılması oraya istənilən dairələrin daxil olma imkanlarını açıq edir. Məsələn, Ermənistanda Rusiya hərbi bazaları ilə yanaş, Aİ missiyası da olacaq və hər iki cinahın Ermənistanın mövcud hakimiyyəti ilə bağlı kəskin maraq toqquşmaları mövcuddur. Bu toqquşmalar isə ölkəni hissələrə parçalanma ehtimalını artırmaqdadır.

## Rəsmi Tehran Aİ missiyasının Ermənistana gəlməsi ilə bağlı: "İran öz sərhədləri yaxınlığında anarxiyaya dözməyəcək"

Növbəti faktor isə İrandır. Artıq rəsmi Tehran özünün ali siyasi rəhbərliyi səviyyəsində bəyan edib ki, regionda, xüsusilə İranla sərhəddə olan ölkənin ərazisində NATO-ya üzv olan dövlətlərə məxsus hərbi mütəxəssislərin hətta mülki fəaliyyətləri fonundakı mövcudluqları yolverilməzdir. "İran öz sərhədləri yaxınlığında anarxiyaya dözməyəcək", deyə həmin bəyanatda bildirilib.Onu da qeyd edək ki, bütün bunlar Ermənistanın qeyri-müəyyən maraqlarını kölgədə qoyur və buradan da nəticə çıxarmaq olar ki, avropalıların missiyası heç də sülhün təmin olunmasını həyata keçirmək deyil, əksinə, öz maraqlarını təmin etməkdir. Məsələn, Ermənistanda mövcud olan Rusiya bazalarının analizini aparmaq, hərbi-siyasi vəziyyəti öyrənmək və s.

Qaldı ki, Ermənistanın missiyadan öz səmərəsi üçün nəyi isə istifadə etməsinə - bu əslə sərhəddəki erməni təxribatlarına qarşı Azərbaycanın cavab tədbirlərinin qarşısını ala bilməyəcək.

## Qərb-Rusiya-İran faktorlarının Ermənistan uğrunda savaşa çıxma ehtimalları artır

Beləliklə, İrəvan hazırda öz uğursuz diplomatiyası ilə növbəti risklər yaradır - təkcə İran və Rusiya faktoru Ermənistan üçün ciddi siqnallardır. Əbəs deyil ki, bu gün Ermənistan müxalifəti iqtidara sual edir ki, regionda yeni risklərin yaranması ölkənin xəritədən silinməsi ehtimallarını artırır. Hətta fakt budur ki, erməni müxalifətçiləri Aİ-nin mülki missiyasının sadəcə görüntü xarakteri daşıdığını bildirir, eyni zamanda həmin missiyada yer alanlar hərbi mütəxəssislərdir. Çox yəqin ki, bunu Rusiya və İran tərəfi də bilir və buna görə də qarşıda Qərb-Rusiya-İran faktorlarının Ermənistan uğrunda savaşa çıxma ehtimalları artır.

*Rövşən RƏSULOV*

# "Müharibə cinayətləri: Mülki şəxslərə hücum" adlı beynəlxalq konfrans keçirilib



**17 oktyabr tarixində Gəncə şəhəri Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Ermənistanın Vətən Müharibəsi zamanı Gəncə şəhərində törətdiyi terror hadisələrinin ildönümü ilə bağlı "Müharibə cinayətləri: Mülki şəxslərə hücum" adlı beynəlxalq konfrans keçirilib.**

SİA xəbər verir ki, konfransda Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva, Milli Məclisin deputatı, Komitə sədri Musa Quliyev, millət vəkilləri Müşviq Cəfərov, Naqif Həmzəyev, Pərvin Kərimzadə, Agentliyin Müşahidə Şurasının üzvü Zaur İbrahimov, Çexiya Gənclər Assossiyasının rəhbəri Radek Smolka, Finlandiyanın Fimigrant Ri təşkilatının rəhbəri İlkka Yuvankovski, Polşa Demokratlar Assosiyasının rəhbəri Adrian Pioçeta, qeyri-hökumət təşkilatları və media nümayəndələri iştirak ediblər.

Konfransdan öncə qonaqlar və iştirakçılar Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin raket atəşinə məruz qaldığı ərazini ziyarət ediblər. Sonra qonaqlar və iştirakçılar Gəncə terroru ilə bağlı yeniyetmə rəssamların rəsm sərgisi ilə tanış olublar. Daha sonra konfrans Şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.






Konfransa açılış nitqi ilə başlayan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva Gəncə terrorunun ikinci ildönümü ərəfəsində beynəlxalq konfransın təşkil edilməsinin əhəmiyyətindən danışıb, Ermənistanın döyüş meydanında yaşadığı məğlubiyyətin əvəzində mülki əhaliyə və infrastruktura vurduğu ziyanın hərbi cinayətkarlığın və barbarlığın göstəricisi olduğunu qeyd edib: "Təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən müharibə cinayətləri bu gün də davam edir, 30 il ərzində mina partlayışı nəticəsində 3000-dən artıq Azərbaycan vətəndaşı həyatını itirib və ya xəsarət alıb. İşğaldan azad olunmuş ərazilər minalardan təmizləndikcə aşkar edilən kütləvi məzarlıqlar isə azərbaycanlılara qarşı törədilən etnik təmizləmə siyasətinin bariz nümunəsidir. Regionda yaranmış yeni siyasi reallığı nəzərə alaraq, vətəndaş cəmiyyəti nümayəndələri də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında fəallığını davam etdirməli, Ermənistanın "Müharibə qurbanlarının müdafiəsi haqqında", "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" və s. konvensiyaların normalarını kobud şəkildə pozduğunu və beynəlxalq hüquqi məsuliyyətə cəlb olunmasının vacibliyini beynəlxalq təşkilatların diqqətinə çatdırmalıdır".

Çıxış edən Milli Məclisin Komitə sədri Musa Quliyev, millət vəkilləri Müşfiq Cəfərov, Naqif Həmzəyev, Pərvin Kərimzadə, Agentliyin Müşahidə Şurasının üzvü Zaur İbrahimov, Çexiya Gənclər Assossiyasının rəhbəri Radek Smolka, Finlandiyanın Fimigrant Ri təşkilatının rəhbəri İlkka Yuvankovski, Polşa Demokratlar Assosiyasının rəhbəri Adrian Pioçeta bildiriblər ki, 44 günlük Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini bir daha göz önündə canlandırdı. Uşaq, qoca və qadınların terrora məruz qalması, dünya ictimaiyyətinin bu vandallığa səssiz qalması bütün beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq prinsiplərinin kobud şəkildə pozulması deməkdir. Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlər törədirlər.

Sonra çıxış edən QHT sədrləri Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədov və "Təmas" regional inkişaf ictimai birliyinin sədri Südabə Məmmədova baş vermiş terror hadisələrini pisləyərək, bu sahədə bütün beynəlxalq təşkilatlara haqq səsimizi çatdırılması istiqamətində QHT-ləri aktiv olmağa səsləyiblər. Çıxışlardan sonra mövzu ətrafında müzakirələr aparılıb. Konfransın yekunu olaraq iştirakçılar adından BƏYANAT səsləndirilib.

# Əqidəli, peşəsinə sədaqətli, cəsarətli jurnalist

**Məşhur "91-lər"in ümummilli lider Heydər Əliyevə müraciətindən 30 il keçir. 1992-ci il oktyabr ayının 16-da respublikamızın tanınmış, nüfuzlu ziyalılarından 91 nəfər Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə müraciət edərək Azərbaycanın son dərəcə çətin, ağır durumunda ölkəyə rəhbərlik edəcək həqiqi bir lideri Heydər Əliyevin simasında gördüklərini bildirdilər.**

O zaman dövri mətbuatda dərc olunmuş həmin yazıda ölkənin ictimai-siyasi vəziyyəti, bütün sahələri bürümüş ağır böhran təhlil edilərək ulu öndərə müraciətlə deyilirdi: "Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Xalqımızın müdrik rəhbəri Heydər Əliyev Yeni Azərbaycan Partiyasının onillik yubiley mərasimindəki çıxışında "91-lər" barəsində belə demişdir: "91-lər", onlar artıq dillərdə əzbər olublar. Mən "91-lər"in hamısına həmişə böyük hörmət və ehtiram bəsləmişəm. Bu gün də onların hamısına-dünyadan gedənlərə Allahdan rəhmət diləyirəm, indi bizimlə bərabər olanlara səmimi-qəlbdən təşəkkür edirəm. Ona görə yox ki, "91-lər"in müraciəti, - sizinlə açıq danışıram, - mənim həyatımda böyük bir dönüş rolu oynadı. Yox. Siz bilirsiniz ki, biz partiyanı yaradandan 7 ay sonra xalq, o cümlədən o vaxt iqtidarda olanlar, artıq qaçıb dağılmaqda olan insanlar məni Azərbaycana dəvət etməyə məcbur oldular".

Yeni Azərbaycan Partiyasının "qızıl fondu" elan olunmuş "91-lər"dən biri haqqında söhbət açmaq istəyirəm. Müraciətdə 86-cı imzanın sahibi, istedadlı jurnalist, vətənpərvər ziyalı Mirzə Əsgərovdur. Bir-birimizi tələbəlik illərindən tanıyırdıq. 1970-ci illərin qaynar tələbəlik həyatı, mətbuata sonsuz həvəs bizi birləşdirmişdi. İkimiz də Bakı Dövlət Universitetinin çoxtirajlı "Lenin tərbiyəsi uğrunda" (indiki "Bakı universiteti") qəzetinin redaksiyasında tələbə müxbir kimi fəaliyyət göstərirdik. Demək olar ki, hər gün görüşür, yazdıqlarımızı müzakirə edir, qayğılarımızı bir-birimizlə bölüşürdük.

Mirzə Əsgərov 1956-cı il iyulun 7-də Naxçıvanın Ordubad rayonunun Aşağı Aza kəndində zəhmətkeş bir ailədə dünyaya göz açmışdır. Zəhmətə qatlaşmağı, halallığı hələ uşaq yaşlarından atası Qəhrəman kişidən öyrənmişdi. Orta məktəbi bitirib təsərrüfatda işləmiş, ordu sıralarında xidmət etdikdən sonra Bakı Dövlət Universitetinə daxil olmuşdu.

Tələbəlik illərində universitet qəzeti ilə yanaşı, "Azərbaycan gəncləri", "Sovet kəndi" və digər respublika qəzetləri ilə sıx əməkdaşlıq edir, yazıları qəzet və jurnallarda müntəzəm çap olunurdu. Dövrünün problemlərini işıqlandıran maraqlı, məzmunlu, məqalələri geniş oxucu kütləsinin rəğbətini qazanmışdı. Mirzə artıq III kursda oxuyar-



kən universitetin çoxtirajlı qəzetində ədəbi işçi vəzifəsinə qəbul olunmuşdu.

Mirzə Əsgərov ali təhsilini başa vurandan sonra Bakı Ali Partiya Məktəbini (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası), Azərbaycan Jurnalistlər Birliyi nəzdində Jurnalist Sənətkarlığı İnstitutunu, Moskvada Mətbuat İşçiləri üçün Ümumittifaq İxtisasartırma Kursunu da bitirmişdi.

İstedadlı qələm sahibi 1983-cü ildə Bakı Dərin Dəniz Özülləri Zavodunun "Xəzər-Kaspi" qəzetinə baş redaktor təyin olundu. O dövrdə Bakının rayonlarında qəzet çıxmırdı. Mirzənin işgüzarlığı, yüksək peşəkarlığı sayəsində "Xəzər-Kaspi" həm də Qaradağ rayonunun qəzeti kimi tanınır, böyük oxucu kütləsinin diqqətini cəlb edirdi. Qəzet dəfələrlə respublika müsabiqələrində qaliblər sırasında olmuş və bir sıra mükafatlara layiq görülmüşdü.

Mirzə Əsgərov 1987-ci ildən taleyini Azərinforma (AZƏRTAC - red.) bağlayıb. Bu nüfuzlu agentliyin əvvəl Muğan bölgəsi, sonra Naxçıvan Muxtar Respublikası üzrə xüsusi müxbiri işləyib.

1990-1993-cü illərdə Mirzə Naxçıvanda işləyərkən vəziyyət son dərəcə ağır idi. Bütün sahələrdə böhran hökm sürürdü. Azərbaycanın başıpozuq, səriştəsiz rəhbərləri bu ulu, qədim diyarı Azərbaycandan təcrid edərək iqtisadi, siyasi, informasiya blokadasına salmışdı.

Naxçıvanda baş verən inqilabi dəyişikliklər, yeniliklər Azərbaycan rəhbərliyi tərəfindən qısqanclıqla qarşılanırdı. Heydər Əliyev haqqında qərəzli və sifarişli məqalələr yazılır, Muxtar Respublika ilə bağlı həqiqətlər ölkə daxilində və xaricdə məqsədli şəkildə gizlədilirdi. Azərbaycanın rəsmi qəzetləri, televiziya, radio, AZƏRTAC bu barədə susur, heç bir məlumat verilmirdi. Naxçıvan sözün əsl mənasında informasiya blokadasında yaşayırdı.

Zəhmətkeş, təcrübəli jurnalist Mirzə Əsgərov o dövrdə ümummilli lider Heydər Əliyevlə tez-tez görüşür, üzləşdiyi problemlər barədə məlumat verir, məsləhətlər alırdı. 1992-ci ildə ulu öndərin təşəbbüsü və xeyir-duası ilə Muxtar Respublikanı informasiya blokadasından çıxartmaq məqsədilə Mirzə Əsgərov "Real" informasiya agentliyini və "Naxçıvan" qəzetini təsis etdi. "Naxçıvan yaşayır, döyüşür" adlı jurnalın isə əsas müəllifi oldu.

"Real" müstəqil informasiya agentliyi qısa müddət ərzində İran İslam Respublikasının "İrna", Türkiyənin "Anadolu Ajans", Rusiyanın "İTAR TASS" kimi nüfuzlu agentlikləri ilə sıx əməkdaşlıq edərək Naxçıvan həqiqətlərini dünya ictimaiyyətinə çatdırdı. "BBC CNN" və beynəlxalq aləmdə yaxşı tanınan digər informasiya agentliklərinin əməkdaşlarını Naxçıvana dəvət edib informasiya blokadasını yarmağa müvəffəq oldu.

Naxçıvan Ali Məclisinin sədri, milli mətbuatımızın himayədarı Heydər Əliyevin yüksək diqqəti və qayğısı sayəsində "Naxçıvan" qəzeti 150 min tirajla çap olunur, geniş oxucu auditoriyasının məhəbbətini qazanırdı. Lakin bəzi siyasi nankorlar, xainlər, bədxahlar qəzetin Bakıda və Naxçıvanda fəaliyyət göstərən redaksiyalarına hücumlar təşkil edib əməkdaşların işinə mane olurdular. Yaradıcı kollektiv haqsızlıqlara, yersiz təzyiqlərə, təqiblərə, təhqirlərə baxmayaraq, cəsarətlə, qətiyyətlə, yüksək peşəkarlıqla öz işini görürdü. Mirzə Əsgərovun və onun ətrafındakı insanların ulu öndərə sədaqətindən narahat olanlar istəklərinə çata bilmirdilər.

Mirzə Əsgərov jurnalist fəaliyyəti ilə yanaşı, Naxçıvanın ictimai-siyasi, mədəni həyatında da fəallıq nümayiş etdirirdi. Qətiyyətli, işgüzar "91-lər"dən, Yeni Azərbaycan Partiyasının fəal qurucularından idi. Muxtar Respublikanın rayonlarını, kəndlərini gəzir, partiyanın təsis yığıncaqlarının keçirilməsində, ilk təşkilatların yaradılmasında yaxından iştirak edirdi. Təzyiqlərə, təqiblərə baxmayaraq, yolundan, əqidəsindən dönmür, partiya rəhbərinin tapşırıqlarını sədaqətlə, yüksək məsuliyyətlə icra edirdi.

Oğlu, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru Araz Əsgərli o çətin günləri belə xatırlayır:

- Tanımadığımız adamlardan evimizə çoxlu zənglər gəlirdi. Cəbhəçilər atama təzyiqlər göstərir, qorxu gəlir, hətta ölümlə hədələyirdilər. Dəfələrlə iş yerinə basqın edərək onu aradan götürəcəklərini demişdilər. Naxçıvanda YAP-ın ərazi təşkilatının birinin təsis yığıncağında atama və onunla bir yerdə gələn nümayəndəyə sui-qəsd hazırlanmış, yaxın qohumların köməyilə onlar təcili yardım maşınında gizli şəkildə təhlükədən uzaqlaşmışdılar.

Atam bütün çətinliklərə, maneələrə mərdliklə, qətiyyətlə sinə gərərək ümummilli liderin siyasi kursuna sədaqətlə xidmət edirdi. Dünyanın nüfuzlu informasiya agentliklərini Naxçıvana dəvət etmək, "Naxçıvan" qəzetinin böyük tirajla çapına nail olmaq, Yeni Azərbaycan Partiyasının təşkilatlanmasına yaxından əməli köməklik göstərmək, jurnalist fəaliyyətini yüksək peşəkarlıqla aparmaq o dövrdə heç də asan deyirdi. Mirzə Əsgərov ulu öndərin yüksək diqqət və gündəlik qayğısı sayəsində bütün bu işlərin öhdəsindən bacarıqla gəlirdi. Var gücünü, enerjisini sevimli işinə sərf edərək Naxçıvanın, müstəqil Azərbaycanın mətbuat salnaməsinə parlaq səhifələr yazırdı. Keçdiyi şanlı, şərəfli ömür yolu ilə bu gün övladları, nəvələri qürur duyur, - deyə Araz Əsgərli bildirir.

Mirzə Əsgərov 37 yaşında - ömrünün ən parlaq, yaradıcılığının məhsuldar dövründə dünyasını dəyişdi. Onu böyük perspektiv gözləyirdi. Lakin qəfil ölüm bütün arzularını yarımçıq qoydu.

Dünyasını dəyişəndən sonra ümummilli lider Heydər Əliyevin onun haqqında dediyi qiymətli fikirlər ailəsi, doğmaları üçün ən böyük təsəllidir: "Bir gün mənim yanıma bir cavan oğlan gəldi. Mən ona görmək istədiyi işlərin çox çətin olduğunu dedim, amma o, öz işinin öhdəsindən layiqincə gəldi. Digər jurnalistlərə də Mirzə Əsgərov kimi əqidəli, peşəsinə sədaqətli, qələmini uca tutmağı tövsiyə edirəm. Allah rəhmət eləsin!"

Bu gün Mirzənin arzularını övladları yaşadır. Qızı Aygün BDU-nun jurnalistika fakültəsini bitirib. Ata yolunu layiqincə davam etdirir. Mirzə Əsgərov milli mətbuatımızda istedadlı, zəhmətkeş, cəsarətli jurnalist kimi iz qoyub. Mətbuat sahəsində səmərəli xidmətlərinə görə "Həsən bəy Zərdabi", "Dan ulduzu", "Qızıl qələm" mükafatlarına, H.Z.Tağıyev adına "Fəxriyyə" diplomuna layiq görülüb.

Yaşasaydı daha böyük mükafatlar alacaq, sanballı yazıları, yeni kitabları ilə oxucuları sevindirəcəkdi. Təəssüf ki, mənalı, yaradıcı bir ömür yarımçıq qaldı. Mərd, sədaqətli, səmimi, gülərüz, qayğıkeş insan, mübariz jurnalist, parlaq şəxsiyyəti kimi yaddaşlara əbədi köçdü.

***Əlisəfa Həsənov***
***"Respublika"***

# "Füzulinin işğaldan azad edilməsi növbəti zəfərlərimizi şərtləndirdi"

**"17 oktyabr 2020-ci il tarixi çox yaddaqalan bir tarixdir. Çox təəssüflər olsun ki, həmin gün Ermənistan tərəfindən növbəti terrorun şahidi olduq". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.**

Onun sözlərinə görə, iki ik öncə bu gün Gəncə şəhərinə uzaqmənzilli raket atıldı və dinc sakinlərin yaşadığı ərazidə daha böyük miqyasda dağıntılar oldu: "Həmin gün bütün Azərbaycan və türk dünyasının ürəyi Gəncə ilə döyünürdü. Hər kəs Gəncənin dərdinə şərik oldu. Məhz həmin gün qəhrəman əsgərlərimiz Gəncənin qisasını Füzuli şəhərini işğaldan azad etməklə aldılar. Göründüyü kimi ermənilərdən fərqli olaraq Azərbaycan əsgərləri və zabitlərimiz dinc sakinlərə deyil, məhz əli silah tutan ermənilərə qarşı vuruşdu. Uzun illərdir ki, işğal altında qalan Füzulini azad etdik. Füzulinin işğaldan azad edilməsi növbəti zəfərlərimizi şərtləndirdi. Terrorun baş verdiyi gündən iki il keçməsinə baxmayaraq hələ də dünya ictimaiyyəti ermənilərin azərbaycanlılara qarşı törətdiyi terrorla bağlı heç bir bəyanat verməyib və münasibət bildirməyiblər. Təbii ki, bu terrorla bağlı cinayət işi qaldırılıb. Ancaq dünya ictimaiyyətinin bu məsələlərdə iki standartlarla yanaşması onu deməyə imkan verir ki, biz prosesləri vaxtilə necə həll etmişiksə, əlbəttə ki, indi də edəcəyik".

***Arzu Qurbanlı***



# 18 Oktyabr - Azərbaycan dövlət müstəqilliyinin bərpa olunduğu tarixi gün

31 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Bu gün 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa olunduğu tarixi gündür. Düz 31 il bundan əvvəl elan olunan 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü xalqımızın tarixinə həkk olundu. Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında Müstəqillik Günü, 1991-ci ildə ”Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə müstəqilliyin bərpası günü kimi qeyd olunur.



15 oktyabr 2021-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü kimi qeyd olunur.

Müstəqilliyinin ilk illərində özünün ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyinin bərpasına Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən Ümummilli Lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı.

XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışı ölkəmizin tarixində həlledici məqam oldu. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində, müharibə bölgəsində ateşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi.

1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində, ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - ”Əsrin Müqaviləsi” imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı.

### ”AZƏRBAYCAN MƏQSƏDLƏRİNƏ DOĞRU DAİM İNAMLA İRƏLİLƏMİŞ, ÖZ HƏDƏFLƏRİNDƏN YAYINMAMIŞDIR”

Bu gün Azərbaycan yeni bir inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir. Ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Son illər ərzində iqtisadiyyatımızın həcmi üç dəfədən çox artmış, güclü iqtisadi infrastruktur yaradılmış, mədəni irsimizin qorunması, inkişafı və təbliğində, təhsil, səhiyyə və digər sosial sahələrdə ciddi uğurlar əldə edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır.”

Bu gün, tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: ”İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var”.

Dövlət başçısının dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti Azərbaycanı inkişaf etmiş demokratik ölkələr sırasına çıxarıb. Demokratik və müstəqil dövlət kimi kimi tanınan Azərbaycan çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda ölkə həqiqətlərini dünyaya çatdırır, Azərbaycanın mənafelərini uğurla müdafiə edir. Vurğulamaq yerinə düşər ki, Azərbaycan diplomatiyasının uğurları yalnız BMT ilə deyil, digər nüfuzlu təşkilatlarla da sıx əlaqə yaratmasına imkan verib. Bu sırada Azərbaycanın İslam Konfransı Təşkilatı, Avropa Şurası, GUAM, Avropa İttifaqı və digər tanınmış beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi xüsusi qeyd olunmalıdır.

Bu gün Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün nadir əməkdaşlıq məkanına çevrilib. Azərbaycan Respublikasının xarici ölkələrdə səfirlikləri, beynəlxalq təşkilat yanında daimi nümayəndəlikləri, baş konsulluqları, təmsilçilik ofisləri və fəxri konsulluqları fəaliyyət göstərir. Respublikamızda isə dünya dövlətlərini səfirlikləri, baş konsulluqları, fəxri konsulluqları və beynəlxalq təşkilatların nümayəndəliyi vardır. Dövlət başçısının vurğuladığı kimi, ”Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində də diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var”.

### ”AZƏRBAYCANIN VƏTƏN MÜHARİBƏSİNDƏKİ ZƏFƏRİ REGİONUMUZDA YENİ REALLIQLAR YARATMIŞDIR”

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər 31 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəklikləridir.

Bu gün müstəqillik tariximizin ən şərəfli, qürurlu zamanı yaşayırıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək tarix yazdıq. Əzəli torpaqlarımızın düşmən işğalından azad olunması üçün yol gəldik. Güclü Azərbaycan ordusu cəbhədə öz sözünü deyərək, tariximizə Zəfər yazdı. ”Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır”, - deyə Azərbaycan Prezidenti bildirmişdir.

Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. İllərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yaşadıqları yurd yerlərinə dönəcəklər. Bu gün Ağalı kəndində yaşayan insanlar öz əzəli torpaqlarında yaşayırlar, tezliklə işğaldan azad olunan digər ərazilərimizdə də qaynar həyat başlanacaqdır. Bu gün artıq Azərbaycan Ermənistan üzərindəki qələbədən sonra işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlayıb. ”30 il ərzində ermənilər o yerləri dağıdıblar və bu gün oranı bərpa etmək, əlbəttə ki, vaxt tələb edir”, deyən Prezident bizim burada əsas rəqibimizin zaman olduğunu bildirmişdir.

Bu gün Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 31 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra artıq ikinci ildir ki, bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Böyük Qayıdışdan sonra Füzulini yeni həyat gözləyir

“27 Sentyabr -Anım Günündən, yeni 44 günlük İkinci Qarabağ müharibəsinin başlandığı tarixdən etibarən 44 günün hər anı Azərbaycan tarixinə 30 il işğal altında olan şəhərlərimizin, qəsəbələrimizin, kəndlərimizin və strateji yüksəkliklərimizin azad edilməsi tarixi kimi yazıldı. Bu tarixləri qeyd edərkən Azərbaycan Ordusunun qəhrəmanlığından, şücaətindən bəhs etməmək mümkün deyil. Rəşadətli ordumuz 44 gündə elə bir tarix yazdı ki, xalqımız 30 il bu sevinci yaşayacağı anı səbirsizliklə gözləyirdi. Heç zaman ümidini itirməyən xalq dövlət başçısı İlham Əliyevin hər bir vədinin konkret əməli işdə təsdiqini tapmasını görür və bu fonda torpaqlarımızın da tarixi sahibinə qovuşacaqları günün uzaqda olmadığına tam əminlik nümayiş etdirirdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyev qaçqın və məcburi köçkünlərlə hər görüşündə daim bu fikri onlara çatdırırdı ki, sizin üçün yaradılan şərait müvəqqəti xarakter daşıyır. Tezliklə işğaldan azad edilmiş torpaqlarımız azadlığına qovuşacaq, soydaşlarımızın pozulmuş hüquqları bərpa ediləcək və siz hamılıqla öz doğma yurd-yuvalarınıza qayıdacaqsınız. Hazırda bu fikir də bir reallıq kimi qeyd edilir ki, dövlət başçısı İlham Əliyevin prezidentliyinin 17 ili torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq dövrü kimi xarakterizə olundu. Biz Qarabağa və Şərqi Zəngəzura qayıtdıq. Bu qayıdış böyük səylərin, qətiyyətin, real faktlara, tarixi həqiqətlərə əsaslanan siyasətin, müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordumuzun güclənməsinin nəticəsidir. Ən yüksək tribunalardan səslənən ”Sülh danışıqları səmərə verməyəcəyi təqdirdə hərb variantına üstünlük veriləcək” bəyanatı da ordumuzun gücünə əsaslanırdı.” Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

1993-cü il avqustun 23-də erməni hərbi birləşmələrinin Füzuli şəhərini, Horadiz qəsəbəsini və rayonun 82 kəndini işğal etdiyini, soydaşlarımızın öz doğma yurd-yuvalarından didərgin salındıqlarını vurğulayan YAP Xətai rayon təşkilatının sədri bildirib ki, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu sahəsində atılan addımlar öz real nəticəsini verdi: ”1994-cü ilin yanvarın əvvəllərində həyata keçirilən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı nəticəsində qısa müddətdə 21 min hektar ərazi - Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi.”



Vüqar Rəhimzadə qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev 17 oktyabr 2020-ci il tarixində bu xoş xəbəri özünün ”Twitter” səhifəsindən xalqımıza çatdırdı: ”Bu gün Azərbaycan Ordusu Füzulidə Azərbaycan Bayrağını qaldırdı. Füzuli bizimdir. Qarabağ Azərbaycandır!” Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri şanlı Ordumuz tərəfindən 17 oktyabr tarixində işğaldan azad edildi. Ümumilikdə Vətən müharibəsində Füzuli şəhəri daxil olmaqla rayonun 62 yaşayış məntəqəsi azadlığına qovuşub. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25167 hərbi qulluqçusu ”Füzulinin azad olunmasına görə” medalı ilə təltif olunub.”

”Qarabağımızın digər bölgələri kimi, Füzuliyə də həyat yenidən qayıdır” söyləyən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, işğaldan azad edildikdən sonra burada quruculuq-bərpa işlərinə start verildi: ”İlk olaraq ərazinin mina və partlamamış hərbi sursatlardan təmizlənməsinə başlanıldı. Erməni hərbi birləşmələrinin təxribatı nəticəsində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə, habelə sahibkarlıq subyektlərinə dəyən ziyanın qiymətləndirilməsi üçün bütün lazımi tədbirlər görülür. Tarixi Zəfərdən sonra 2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfər etdilər. Dövlət başçısı Füzuli şəhərində Azərbaycan Bayrağını ucaltdı. Füzuli-Şuşa avtomobil yolunun - Zəfər yolunun, Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Dövlət başçısı İlham Əliyevin hər bir səfəri Böyük Qayıdışın sürətlənməsinə xidmət edən addımlarla zəngindir. Dövlət başçısı İlham Əliyev Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin, Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub. Ölkə Prezidenti ”Füzuli” yarımstansiyasının açılışında iştirak edib.”

Vüqar Rəhimzadə bərpa-quruculuq işləri çərçivəsində gerçəkləşdirilən layihələr sırasında Qarabağın dünyaya açılan hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanı ilə yanaşı, Laçın və Zəngilan rayonlarında da aeroportların tikintisini də xüsusi qeyd edib: ”Ötən il oktyabr ayının 26-da iki dost, qardaş ölkənin- Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılışı oldu. Bu mühüm hadisə özündə bir sıra mühüm məqamları, çağırışları ehtiva edir. Bu, ”Bir millət, iki dövlət”in qardaşlığının, dostluğunun, müttəfiqliyinin , hər zaman biri-birinin yanında olmasının dünyaya təqdimatı oldu. O da məlumdur ki, qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad edilmiş ərazilərimizə ilk səfər edən, həmçinin Füzuli Beynəlxalq Hava Limanına ilk uçuşu həyata keçirən, xarici ölkənin dövlət başçısıdır. Yaxın günlərdə Zəngilan Beynəlxalq Hava Limanının da açılışı olacaq. Atılan bu addımlar, ümumilikdə Qarabağın və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafına öz müsbət təsirini göstərəcək. Füzuli aeroportu işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin gəlməsi baxımından da olduqca faydalıdır və bu prosesin sürətlənməsinə yeni imkanlar yaradacaq. O da məlumdur ki, ötən il Zəfər yolu istifadəyə verildi. Bu yolun böyük rəmzi mənası vardır. Çünki Füzuli-Şuşa yolu Azərbaycan Ordusunun Şuşa əməliyyatına şahidlik etdi.”

YAP Xətai rayon təşkilatının sədri diqqətə çatdırıb ki, hazırda bütün işğaldan azad edilmiş ərazilərimiz həyatının yeni mərhələsindədir. Şəhərlərimizin, kəndlərimizin ”ağıllı şəhər” və ”ağıllı kənd” layihələri çərçivəsində yenidən qurulması həyata keçirilir. ”Ağıllı kənd” layihəsi çərçivəsində Füzuli rayonunun Dövlətyarlı kəndində yeni ”ağıllı kənd”in yaradılmasına başlanılıb. Həmçinin rayonda Memorial Kompleksin, Füzuli şəhərinin təməli qoyulub.

Vüqar Rəhimzadə diqqəti dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi Zəfərimizdən sonra Füzuliyə səfəri zamanı Azərbaycan Bayrağını ucaltdıqdan sonra ifadə etdiyi əminliyə yönəldib: ” Ölkə Prezidenti bildirdi ki, bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan Bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası - bütün bu planlar var. Hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli Bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

YAP Xətai rayon təşkilatının sədri torpaqlarımızın işğaldan azad edilməsindən ötən iki ildə görülən bərpa-quruculuq işlərinin miqyasının genişliyindən qürur hissi keçirdiyini bildirib: ”Bu mühüm sahədə reallaşdırılan tədbirlər Böyük Qayıdışımızın tezliklə tam şəkildə həyata keçiriləcəyinə əminliyi artırır. Böyük Qayıdışdan sonra Füzulini yeni həyat gözləyir.”

# “Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idi”

**“Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 31 il keçir. 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Müstəqillik yolunda özünün ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva bildirib.**

Onun sözlərinə görə, 1990-cı ilin iyul ayında Naxçıvana gələn ulu öndər Heydər Əliyev, 30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə yekdilliklə Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı seçildi: ”1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında ümumən Azərbaycanın gələcək müstəqillik müqəddaratı baxımından son dərəcə böyük əhəmiyyətə malik olan taleyüklü qərarlar qəbul edildi. Sessiyada




Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından ”Sovet Sosialist” sözləri çıxarıldı, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən mühüm məsələlər - 1990-cı il 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. 31 dekabrın ”Dünya Azərbaycanlılarının Həmrəylik Günü” kimi qeyd olunması ilə bağlı tarixi qərar qəbul edildi. Rus qoşun hissələri muxtar respublikadan çıxarıldı, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili nəticəsində Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görüldü, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradıldı.

1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı və bağlıdır.

***Abutel İlhamqızı***

# Ayrılığın bitdiyi yer - XUDAFƏRİN

**Yazıma necə və haradan başlayacağımı kəsdirə bilmirəm. Səfəröncəsi hazırlıqlardanmı, Xudafərinin tarixi, keçmişi barədə faktlardanmı, yoxsa iki il əvvəl qəhrəman əsgərlərimiz - Xüsusi Təyinatlı sərhədçilərimiz tərəfindən erməni işğalçı ordusunu necə qovduqlarındanmı, bəlkə eləcə, sadəcə səfər təəssüratlarından yazım, bilmirəm. Amma qələmi əlimə alan kimi aləm dəyir bir-birinə, yenə tarixlə müasirlik, işğal altında qalan Xudafərinlə azad Xudafərin mübahisəyə girir, məndən yaz deyə məni çarnaçar buraxırlar. Elektron medianın imkanları genişdir, hansı yazını, hansı ölçüdə versən udur. Çap mediasında isə yenə əlahəzrət məhdudiyyətlər. Ona görə də elə səfər təəssütatlarımızdan başlayaq, qalanı ya qismət...**



## Səfər təəssüratları

Bakıdan saat 05:00-da yola düşdük. Yollar hələ də bomboş idi, qarşımıza tək-tük maşınlar çıxmasaydı elə düşünərdin ki, bizim səfərimizin rahat keçməsi üçün yollar xüsusi olaraq boşaldılıb. Avtobus sürətlə şütüyürdü. Sanki bizi, biz həsrətliləri, Qarabağa tamarzıları, Xudafərinlə görüşə tələsənləri mənzil başına tez çatdırmaq üçün bağıra-bağıra kənd və qəsəbələri arxada qoyurdu. Sürücümüz sərhədçi idi, görünür bu yolları çox getmişdi deyə, bəzən bizə elə gəlirdi ki, yolu gözüyumulu gedir. Yollarımız da, maşallah, "şüşə" kimi, bəzən hərəkətdə olduğumuzu hiss etmirdik.

Səfərimizin təşkilatçısı Dövlət Sərhəd Xidməti idi. İnsafla desək bu qurumun keçirdiyi, təşkil etdiyi bütün tədbirlər maraqlı və zəngin olur. Yol boyu xidmətin mətbuat katibi Aftandil müəllim gedəcəyimiz yer haqqında məlumat verir, əsasən də təhlükələr haqqında. Biz də onu başa düşürük, nə qədər də olmasa 30-40 nəfərin təhlükəsizliyinə o cavabdehdir. Bəzən ipə-sapa yatmayanlar, qadağan olunmuş, mina təhlükəsi olan yerlərə ayaq basan olanda gileyini, əsəbini gizlədə bilmirdi. Jurmalistlər daha çox material toplamaq hayında idilər, təhlükə demək olar ki, unudulmuşdu. Nəzərə alsaq ki, azad olunmuş torpaqlarımızın hələ də 60-70 faizi mina əsarətindədir. Onların azadlığına, minadan, partlayıcı qurğudan qurtuluşuna hələ xeyli var...

Xudafərində çox olmuşdum desəm inanmazsınız. Hətta Sovetin dövründə belə. Bəli, düz anladınız, həmişə kənimizə Bakı-Noraşen qatarı ilə gedəndə Xudafərin körpüsünün düz yanından keçirdik. Bəzən olurdu ki, rus sərhədçiləri pəncərələrin pərdəsini endirməyi, Cənubi Azərbaycan tərəfə baxmamağı tələb edrdilər. Amma kimə deyirsən, hərə bir yol tapıb aşıb-daşan Araz çayına, elin o tayına, Xudafərinə doyunca baxar, bildiyi tarixi faktları digərləri ilə bölüşərdi. Bunu da çox ehtiyatla edərdilər ki, çuğulların siyahısına düşməsinlər. Qatar da bizə aşıq verirmiş kimi Xudafərinin çox yaxınından keçərdi...

Müstəqilliyimizi elan etdik, amma erməni silahlı qüvvələrinin işğalı altında olduğuna görə, Xudafərinə uzaqdan baxmaq zorunda idik, bu dəfə də Arazın Cənub tayından. Ta o günə qədər ki, 27 sentyabr 2020-ci ildə erməni silahlılarının növbəti təxribatından sonra Silahlı Qüvvələrimiz Ali Baş Komandan, Prezident İlham Əliyevin bir əmri ilə ayağa qalxana, düşmənə qan uddurana qədər.

## İki il əvvəl nə baş verdi?

Əks hücun əməliyyatı ilkin olaraq Qarabağın şimal, şimal-şərq və cənub-şərq cəbhəsi boyunca gedirdi. Azərbaycan ordusunun cənub-şərq cəbhəsi boyunca ilk həmləsi ilə Ermənistan ordusunun müdafiə istehkamları yarılır. Nəticədə azərbaycan ordusu Cəbrayıl rayonunun Araz boyu istiqamətində irəliləməyə başlayır. Elə ilk gündəcə Cəbrayıl rayonunun Arazboyunda yerləşən Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilir. 3 oktyabr tarixində bu əməliyyat istiqamətində Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, Füzulinin isə Aşağı Əbdürrəhmanlı kəndi tamamilə işğaldan azad edilir. Oktybrın 4-də Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Decal, Mahmudlu, Cəfərabad, Horovlu kəndləri və Cəbrayıl şəhəri işğaldan tam azad edilir. Artıq Cəbrayıl rayonu istiqamətdə geniş ərazilərin işğaldan azad olunması ilə İkinci Qarabağ müharibəsində cənub (6 oktyabr) və cənub-qərb cəbhələrinin açılması ilə nəticələnir. Ancaq ordunun müdafiə xəttinin içərilərinə irəliləməsi Qarabağın qapısı adlandırılan Füzuli şəhərinin azad olunmasından keçirdi. Bununla belə əməliyyatların keçirildiyi ərazilər Azərbaycan ordusunun irəlləməsi ilə yüksək dağlıq ərazilərə keçməsi və düşmən tərəfindən Füzulinin təmas xəttində bir neçə müdafiə xətti qurması Füzuli şəhərinin azad edilməsini yuvadırdı. 16 oktyabrdan 17-nə keçən gecə Füzuli şəhəri işğaldan tam azad edilir.. Şəhərin azad olunması artıq ordunun Azərbaycan-İran dövlət sərhəddi boyunca irəliləməsini asanlaşdırır. Artıq bir gün sonra Cəbrayıl rayonunda yerləşən Xudafərin körpülərinə Azərbaycan bayrağı sancılır.

## Tarixi tarix yazanlar danışır

Xalqımız üçün önəmli tarixlərdən biri də oktyabrın 18-dir. 1991-ci ilin bu tarixində Azərbaycan xalqı 70 ildən sonra əsarət zəncirlərindən xilas olaraq müstəqilliyini bərpa etdi. İki il əvvəl 18 oktyabr tarixində isə daha bir işğala son qoyuldu. 27 ildən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev növbəti müjdəli xəbəri xalqımızla paylaşdı. Prezidentin tviter səhifəsində paylaşdığı "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar.



Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!" tviti ölkəmizdə xüsusi coşqu ilə qarşılandı.

Bu əlamətdar gündə azad Xudafərin körpüsünə yollanaraq tarixi Qələbəyə imza atan Dövlət Sərhəd Xidmətinin (DSX) bir neçə hərbi qulluqçusu ilə məhz Xudafərin körpüsünün yanında həmsöhbət olduq. Onlar 27 il bu yerlərdə özlərinə alınmaz qalalar, istehkamlar düzəldərəkmüqavimətə hazırlaşan erməni solahlı qüvvələrinincəmi 8 saata bu yerlərdən vurub çıxara, onları Ermənistanın indiki hələ də qeyri-müəyyən olan sərhədinə qədər qova biliblər. Bu qəhrəmanlar danışmaqdan çox Ali Baş Komandanın qarşıya qoyduğu tapşırıqları mükəmməl icra etmək, düşmənin başını əzmək barədə düşünüblər.

Xudafərin körpüsünə getməmişdən əvvəl səfər proqramında ondan heç də geri qalmayan bir məkan daha vardı - erməni ordusunun üççatlı müdafiə səddi. Birinci və ikinci səddi yarmaq, ermənilərin hazırladığı tələlərdən keçmək və nəhayət üçüncü səddi darmadağın etmək yalnız Azərbaycan əsgərinin işi ola bilərdi. Sərhəd xidmətinin xüsusi təyinatlıları hərbi əməliyyat planını mükəmməl yerinə yetirərək erməni işğalçılarını səngərlərində məhv ediblər. Müharibənin izi hələ də səngərlərdədir. Hər tərəfə səpələnmiş müxtəlif kalibrli gilizlər, raket və qranat atarların boş qutuları, erməni hərbçilərdən qalmış zirehli gödəkcələr, digər geyim növləri hələ də oradadır. Sərhəd xidmətinin xüsusi təyinatlıları haradan və necə gəldiklərini detallarına qədər jurnalistlərə anladırlar. İnsanın ürəyi dağa dönür, onlarla fəxr edirsən, qürur duyursan ki, belə qəhrəmanları olan Azərbaycanda yaşayırsan, bunları yetişdirən komandirlərlə hər gün üz-üzə gəlirsən, belə qəhrəmanlar böyüdən valideynlərlə qonşusan, dostsan, Vətənin hər qarışı uğrunda qan tökən şəhid və qazinin mənsub olduğu millətin nümayəndəsisən. Onlar danışdıqca basin bir az da dikəlir, sanki 30 il başıaşağı yaşamağı unutmaq üçün buludlara çatmağa can atırsan





## Bu da Xudafərin

İlkin məlumata görə, guya Xudafərin körpüsü 1027-ci ildə Şəddadi hökmdarı tərəfindən Rəvvadilərlə mübarizə aparmaq üçün inşa olunub. Tarixi qaynaqlarda belə yazılsa da, Xudafərinin adına görə, məhz xeyirli məqsədlə, məsələn karvan yolunu asanlaşdırmaq, Arazın o tayı ilə bu tayını bir-birinə birləşdirmək üçün inşa edildiyi bəlli olur. Bu körpü dava, savaş, müharibə aparmaq üçün tikilməyib. Unikal memarlıq abidəsi, İpək yolunun üzərində yerləşən körpüdə Azərbaycan memarlıq məktəbinin üslubu izlənilməkdədir. Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşü zamanı bir hissəsi uçurulsa da, sonradan bərpa edilmişdir. Təbii qayalar üzərində inşa edilən körpünün bir hissəsi dövrümüzə qədər gəlib çatıb.

Körpüdən bir qədər aralı daha bir körpü də vardır ki, bu körpü də Xudafərin adlanır. İkinci körpü 15 gözdən ibarət olmuş və XIII əsrdə, Elxanilər dövründə inşa edilmişdir. Hazırda həmin körpünün yalnız 3 aşırımı salamatdır.

Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkat Qüvvələrinin zabitləri danışır ki, Xudafərinin azad olunmasına Cəbrayıl rayonunun Soltanlı kəndi istiqamətindəki tapşırıqla başlanılıb. Kənd istiqamətində mövqeləndikdən sonra tapşırıq gəldi, dozor qrupu fəaliyyətə başladı. Relyefi çox çətin olan marşrut üzərindəki yüksəkliklərdə düşmənin mövqeləri var idi. Tapşırıq bu ərazilərdə olan yüksəkliklərin götürülməsi idi. Düşmən mövqelərindən yan keçmək üçün pilotsuz uçuş aparatlarından (PUA) istifadə olunurdu və qruplar rabitə vasitələri ilə yönləndirilirdi. Dozor qrupu düşmənin müəyyən qruplarından yan keçərək yüksəkliklərdə yerləşir. Bir qrup sol tərəfdən, digər qrup isə sağ tərəfdən dağların arası ilə əraziyə daxil olur. Gecə ikən yüksəkliklərdə mövqelənən qruplar ərazinin müşahidəsini aparır. Burada ermənilərin Araz çayı kənarındakı zastavalar yerləşib. Hava işıqlanandan sonra zastava ələ keçirilir, düşmən ərazidən qovulub çıxarılır.





Uğurlu Xudafərin əməliyyatının önəmi böyükdür. Burada icra olunan əməliyyat zamanı həm ərazi azad edildi, həm də xüsusi təyinatlılarımız bu əraziyə itkisiz daxil oldu. Otuz ildən sonra doğma torpağımıza ayaq basdığı üçün hər kəs sevinirdi. Xudafərin körpüsünə və hakim yüksəkliklərə Azərbaycanın şanlı bayrağını sancıldı. Xudafərin körpüsünün azad olunması Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Babək Ələkbərov tərəfindən Müzəffər Ali Baş Komandana məruzə olundu.

İşğaldan azad olunan ərazilərə ilk dəfə ayaq basarkən unudulmaz hisslər yaşayırsan. Çoxumuz Xudafərin körpüsünü uzaqdan görmüşdük, hərbçilərin azad etdiyi Xudafərini isə bu gün canlı olaraq lap yaxından müşahidə edirik, toxunduq ona, onunla söhbət etdik, onu könüldən olmasa da, gözdən İraq qoymayacağımıza əmin etdik. Mənim kimi, o tarixin ənginliklərindən gələn, özünü təlatümlərdən qoruyub saxlamağı bacaran abidəmizi bir daha itirməyəcəyimə verdiyim söz kimi

Araz çayı kənarındakı qurulmuş hərbi hissədə olmaq mənə xüsusi bir zövq verdi, düz 40 il bundan qabaq mən də əsgər idim, amma Sovetlərə qulluq edirdim. Yox, dönük deyiləm, sadəcə o vaxtlar hamı sovet ordusunda xidmət edirdi. Müqayisə apardım, sovetlərin vaxtında hərbçilərin qidalanması ilə müasir dövrümüzdə əsgərlərimizin menyülərini tutuşdurdum. İnsafən, bizdəki xidmət tam başqadır. Əsgərlər səliqəli, təmiz, yeməklərə isə söz ola bilməz. Əziz sərhədçilər, gəldik, sizlərlə görüşdük, sizin o gözəl yağlı fətirlərinizdən, heç də restorandan geri qalmayan yeməklərinizdn yedik, haqqınızı halal edin

Üzümüz Zəngilanadır, oralarda nə var, nə yox, erməni vandallar bu gözəl təbiətli yurd yerimizdə hansı vandallıqlar törədib və indi vəziyyət necədir? Bu sualların cavabını bilmək istəyirsinizsə bizi izləyin.

***Vəli VƏLİYEV***
***Bakı-Xudafərin-Zəngilan-Bakı***





# "Daldan atılan DAŞ", yaxud "TOYDAN SONRA NAĞARA"

**Avropa İttifaqının Ermənistanın Azərbaycanla sərhəddinə müşahidə missiyasını göndərmək qərarı İrəvanla Bakı arasında vasitəçilikdə Qərb oyunçularının atdığı addım kimi görünür. Amma bu arada avropalı müşahidəçilərin ideya müəlliflərindən birinin, Fransa prezidenti Emmanuel Makronun Azərbaycanda hiddət dalğasına səbəb olan, hətta Ermənistanda belə birmənalı qarşılanmayan bəyanatla çıxış etməsi pozuculuq kimi qiymətləndirilir.**

Avropa İttifaqının monitorinq missiyasının Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməsi ideyası artıq reallaşmaq üzrədir. Bu məsələni İrəvan artıq qəbul edib və nəinki Paşinyan hakimiyyəti, bütün erməni siasətçiləri də vəziyyəti başa düşmək, qəbul etmək niyyətindədirlər. Ermənistan xarici işlər nazirinin müavini Hovhannisyan özü də cümə axşamı jurnalistlərə deyib ki, Avropa İttifaqının faktaraşdırıcı missiyasının yerləşdirilməsi üçün müşahidəçilərin yerləşdirilməsi məqsədilə xüsusi yerlər barədə bütün meyarlar müzakirə ediləcək. Bu isə o deməkdir ki, rəsmi İrəvan artıq Avropa İttifaqının mövqeyi, qərarı ilə razılaşıb. Belə bir vəziyyətdə Fransa prezidentinin yenə də ortaya atılması, məsələnin həllini pozmağa xidmət edən fikirlər səsləndirməsi heç də normal görünmür, əksinə, ciddi şəkildə rezonans doğurucu təsir bağışlayır.

Makron hər zaman erməniпərəst siyasətçi kimi tanınıb, Ermənistana tərəf çıxan prezident kimi dünyada qəbul edilir. Bu dəfə də, Praqa görüşünün ardınca, özü də öz iştirakı ilə keçirilən görüşün ardınca ermənipərəstliyini tamamilə açıq şəkildə ortaya qoysa da, həddini tamamilə aşıb və ifrat dərəcədə tərəfkeşliyini nümayişkaranə şəkildə göstərmək arzusuna düşüb. Bunu ermənilər özləri də yaxşı başa düşüblər və Ermənistana məxsus mətbuat səhifələrində də, erməni əsilli siasətçilərin fikirlərində də bu öz əksini tapır. İndi ermənilər etiraf edirlər ki, Makron artıq Moskvadan da özünün İrəvanın daha yaxın müttəfiqi olmağa hazır olduğunu nümayiş etdirməyi qərar verib. "Orada 5 min rus əsgəri yerləşdirilib, Rusiya bu münaqişəyə müdaxilə edərək, yaxın vaxtlara qədər ona yaxın olan Ermənistanı zəifləmətməyə çalışır və bu, sabitliyi pozmaq cəhdləridir", deyə "France 2" telekanalının efirində fikirlərini, daha doğrusu "ürəyindəkiləri" açıq şəkildə ifadə edən prezident Makron özünü, ölkəsini Moskvadan daha çox Ermənistana yaxın kimi göstərməyə çalışıb.

Bundan əlavə, Qarabağı "mübahisəli" və "beynəlxalq səviyyədə tanınmayan" region adlandırmaqla, həmçinin Azərbaycanı "çoxlu insanın ölümünə səbəb olan dəhşətli müharibəyə başlamaqda və ərazi ələ keçirməkdə" ittiham etməklə, əndazəni, həddi aşıb. Məsələ burasındadır ki, ermənilər özləri də başa düşürlər və etiraf edirlər ki, Makron bir növ, Praqada səsini çıxara bilməməsinə görə ermənilər qarşısında "günahını" yumağa çalışır. Deməli, Makron elə bil ki, Praqa görüşündən sonra birdən-birə dilə gəlməli olub, görüş bitdikdən və öz ölkəsinə qayıtdıqdan sonra cəsarətlənib, eyni ilə, "daldan atılan daş" zərb məsəlində olduğu kimi. Sual oluna bilər ki, niyə Makron bu ifadələri məhz Praqada səsləndirmirdi, daha dəqiq desək, səsləndirməyə cəsarəti çatmırdı? Axı beynəlxalq səviyyəli görüş idi və bütün dünyanın da gözü, nəzəri, diqqəti orada idi. Belə bir şəraitdə dinməyən siasətçi, görüş bitib qurtarandan sonramı "qəhrəmanlıq" etmək qərarına gəlibmi? Yaxud, öz ölkəsinə qayıdandan sonra özündə "cəsarət" tapıbmı? "Toydan sonra nağara" çalmaq yadına düşüb yoxsa?

Makronun bu tərzi ermənilərin özlərinə də xoş təsir bağışlamayıb, əksinə, indi ermənilər hesab edirlər ki, Fransa prezidenti düzəlməkdə olan prosesi pozur, pozuculuq edir. Çünki Ermənistan tərəfi artıq dərk edir ki, reallıqlar qarşısında acizdir və Avropa da Azərbaycan həqiqətlərini qəbul edir, hansıki bu vəziyyətdə onların sülh müqaviləsinə razılaşmaqdan başqa çıxış yolları qalmır, amma Makron bu çıxış yolunu da öz xatirinə, özünü göstərmək xatirinə onların əlindən alır. Yəni, pozuculuq dedikdə ermənilər bunu belə başa düşürlər və belə hesab edirlər ki, indi Moskvadan daha çox ermənipərəst olduğunu nümayiş etdirmək, özü də öz xatirinə göstərmək vaxtı, "toydan sonra nağara" yeri deyildi.

"Fransa Azərbaycandan qaz alır və bu məsələdə heç bir razılaşma yoxdur", deyən Fransa prezidenti guya ki, öz mövqeyində prinsipial olduğunu göstərməyə çalışıb. Əvvəla, Makronun birtərəfli mövqe tutduğu heç kim üçün, ələlxüsus Azərbaycan üçün sirr deyil, bunu sonuncu dəfə nümayişkaranə şəkildə etməsində də yenilik yox idi, amma təəccüblü idi, çünki dağıdıcı, pozucu nəticələrdən başqa heç bir nəticə vəd etməyən addım atdı. Doğrudur, Makronun sonuncu dəfə belə ədalətsizcəsinə, özü də həqiqətləri, hüquqları təhrif edən formada ermənipərəst mövqe nümayiş etdirməsi rəsmi Bakının, vətəndaşlarımızın hiddətinə səbəb olmaya bilməzdi, amma onun bu addımı Azərbaycana deyil, birbaşa Ermənistana zərbə kimi qiymətləndirilir və bunu elə ermənilərin özləri də açıq şəkildə bildirirlər. Etiraf edirlər ki, Makronun son "jesti" dost dediyi ölkəyə zərbəsidir. Digər tərəfdən də, Makronun ölkəsi Azərbaycandan qaz almayanda Fransanın təbii qazla təchizatında problemlər yaranır, Azərbaycanın yox. Bu gün Avropa ölkələri enerji təhlükəsizliyi məsələlərini, daha doğrusu problemlərini müzakirə etdiyi zaman, Azərbaycanı sabit enerji təchizatçısı olaraq qəbul etdiyi zaman, bircə dənə Fransanın hansısa razılaşmasının olub-olmaması bizim üçün heç bir fərq etmir. Bir sözlə, Makronun atdığı bu "daş" heç topuğa da dəymiş olmur.

Bir məsələ də ermənilərə aydın oldu ki, Makron onların xatirinə "çıxış" etməyib. Ümumiyyətlə, kimlərinsə dəyirmanına su tökməkdə "mahir" olan Fransa prezidentinin bu dəfə də hansısa dəyirmana "su tökmək" niyyətini ermənilər özləri ifşa ediblər. Erməni politoloq Stepan Danielyan öz növbəsində əminlik ifadə edib ki, Fransa prezidentinin fikirləri Ermənistan üçün deyil, Qərblə Rusiya arasında gedən mübarizə məntiqində səslənib. Deməli, ermənilər özləri də yaxşı başa düşürlər ki, Makronun son "performansı" Ermənistan üçün, erməni cəmiyyəti naminə deyildi. Təbii ki, ermənilər onun bir ermənipərəst olması fonunda "simasını" hamıdan yaxşı tanıyırlar, hansıki bir-birinə tən gələn "dostlar" bir-birilərini daha yaxşı tanıya bilmələdirlər, burada da bir qeyri-adilik yoxdur. Məhz bu məntiqlə yanaşanda ermənilərin Makron haqqında dediklərinə dünya ictimaiyyətinin inanmaq istəyi başadüşüləndir. Fransa prezidentinin bəyanatına Moskvanın da reaksiya verməsi təsadüfi sayılmır. "Azərbaycan və Ermənistanla Rusiyanın münasibətlərinə Parisin zərbə vurmaq cəhdləri uğursuzluğa məhkumdur və Fransanın nüfuzunun daha da aşağı düşməsinə gətirib çıxaracaq, eləcə də biz, Emmanuel Makronun Rusiyanın guya Dağlıq Qarabağ münaqişəsindən Cənubi Qafqazda sabitliyi pozmaq üçün istifadə etdiyi barədə bəyanatlarını açıq-aşkar şəkildə qətiyyən qəbuledilməz hesab edirik və bu cür hücumları Qərbin Rusiyanı şeytanlaşdırması üçün anti-Rusiya xəttinə uyğun hesab edirik", deyə cavab verilməsi, yəni Moskvanın reaksiyası təsdiq edir ki, Makronun rola girdiyinin, "kimlərinsə dəyirmanına su tökmək şakərinin" bütün dünya artıq fərqindədir.

Həqiqətən də Praqa görüşünün nəticələri də Azərbacanın növbəti diplomatik qələbəsi sayılır. Avropanın Azərbaycan həqiqətlərini qəbul etməsi, ölkəmizin yaratdığı reallıqla barışması, bu reallıqdan çıxış etməsi, başda Azərbaycan Prezidenti cənab İlham Əliyev olmaqla, bütün azərbaycanlıların uğuru, qələbəsidir. Bu qələbəni, bu uğuru Fransa prezidenti həzm etməsə belə öz gözləri ilə, özünün iştirak etdiyi Praqa görüşündə gördü. Gördü ki, Azərbaycan davamlı olaraq qələbələrə imza atır və bu reallıq qarşısında susmaqdan başqa onun heç nəyə gücü çatmır, baxmayaraq ki, Ermənistanın baş naziri ilə təkbətək görüşüb min bir hiylə fikirləşirdilər. Onun öz susqunluğu fonunda ermənilərin hədəfinə tuş gəlməsi də təsadüfi deyildi və ermənipərəst kimi "ad qazanan" Fransa prezidentinin çarəsizliyi Ermənistanda hələ də çox pis qarşılanmaqdadır. Elə ermənilərin özləri tərəfindən Makrona sual oluna bilər ki, bütün dünyanın diqqətinin yönəldiyi Praqa görüşündə niyə deyə bilmədiyini sonradan dilə gətirir? Sual oluna bilər ki, bu "daldan atılan daş" və yaxud da "toydan sonra nağara" kimin nəyinə lazım idi?

***İnam Hacıyev***

## Xocavənd ərazisində insan sümükləri aşkarlanıb



İşğaldan azad edilən Xocavənd rayonu ərazisində təmir-tikinti işləri ilə məşğul olan işçilər tərəfindən insan sümükləri tapılıb. Ərazidə çalışan əməkdaşlardan biri rayonun Ərəkül kəndində insan skeletinin hissələrinə bənzər sümüklərə rast gəlib.

SİA-nın AZƏRTAC-dan əldə etdiyi məlumata görə, Daxili İşlər Nazirliyi mətbuat xidmətinin Bərdə regional qrupunun baş inspektoru, polis kapitanı Aslan Qiyaslı bildirib ki, hadisə ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) "102" qaynar xəttinə məlumat daxil olub. Məlumat daxil olduqdan sonra dərhal Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları hadisə yerinə cəlb edilib.

"İlkin araşdırma zamanı məlum olub ki, sümüklər ərazidəki yağışlardan sonra baş vermiş torpaq sürüşməsi zamanı üzə çıxıb. Sümüklər həmin yerdən toplanaraq aidiyyəti üzrə ekspertizaya təqdim olunub", - deyə o əlavə edib.

Qeyd edək ki, işğaldan azad olunmuş Xocavənd rayonunun Edilli kəndində sentyabr ayında daha bir kütləvi məzarlıq tapılmışdı. Məzarlıqda ölümündən əvvəl əlləri və ayaqları məftillə bağlanmış 12 nəfərin qalıqları aşkarlanmışdı. Həmin qalıqların azərbaycanlı hərbçilərə aid olduğu güman edilir.

## "Qarabağda əbədi olmaq üçün çox böyük işlər görülüb"



"Füzuli rayonu işğaldan azad edildikdən sonra tez bir zamanda yenidənqurma və bərpa işləri görülüb". Bu sözləri SİA-ya açıqlamasında deputat Nizami Cəfərov deyib. Onun sözlərinə görə, işğaldan azad olunan ərazilərimizdə yenidənqurma işləri məhz Füzulidən başlandı: "Füzuli Azərbaycanın böyük mədəniyyət ocaqlarından biridir. Füzuli yurdumuza bir çox yazıçılar, şairlər və ziyalılar yetişdirib.

Azərbaycan Prezidenti dəfələrlə Füzulidə olub və görülən işlər daim nəzarətindədir. Yenidənqurma və bərpa işləri ardıcıl sistemli davam edir. Füzuli yaxın zamanlarda nəinki keçmiş şöhrətini özünə qaytaracaq, eyni zamanda regionun ən gözəl şəhərlərindən biri olacaq. İşğaldan azad edilmiş ərazilərdə ermənilərin illər boyu Azərbaycan torpağına vurduqları ziyan yavaş-yavaş düzələcək. Yəni, bu ziyanın yalnız tarixi təəssüratları qalacaq. Şuşanın işğaldan azad edilməsi üçün Füzuli bir qapı rolu oynayırdı.

44 günlük müharibədə zəfər əldə edilməsi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. 44 günlük Vətən müharibəsindən qələbə ilə çıxmaq Azərbaycan tarixinin ən böyük hadisəsidir və ən böyük nailiyyətidir. Bu nailiyyətin müəllifi dəmir yumruğu düşmənə sərgiləyən müzəffər Azərbaycan Ordusu və Ali Baş Komandan İlham Əliyevdir".

Deputat sözlərinə əlavə edərək bildirib ki, İlham Əliyevin iradəsi və vətənpərvərliyi ilə düzülən Azərbaycan xalqının önündə gedən qələbəni təmin edən ordu və eyni zamanda Azərbaycan Prezidentinin yaratmış olduğu beynəlxalq mühit ilə Qarabağ işğaldan azad oldu: "Prezident İlham Əliyev beynəlxalq münasibətlər və diplomatik manevrlər ilə Azərbaycan həqiqətlərini dünyaya çatdırdı və istəklərimizin reallaşmasına səbəb oldu. Bu həqiqətən uzun müddət idi ki, beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmirdi. İndi isə əsas məsələ cənab Prezidentin dediyi kimi bizim Qarabağda əbədi olmağımızdır. Əbədi olmaq üçün iqtisadi, mədəni, siyasi baxımdan artıq çox böyük işlər görülüb. Bu gün hər kəs bilir ki, artıq Qarabağ problemi yaşanmayacaq".

***Qönçə Quliyeva***

# Ekoloji cəhətdən təmiz nəqliyyat yanacağı hansıdır?

**Dünyanın bütün ölkələrində benzin və dizel yanacağının hər hansı mövcud ekoloji cəhətdən təmiz yanacaqla əvəz edilməsinin təşviqi bir çox danılmaz üstünlüklərə malikdir, lakin eyni zamanda bir çox yeni suallar doğurur.**

Ətraf mühitə və insanlara daha az zərərli yanacaq növlərinə keçid bir çox maliyyə və ekoloji problemlərin həllini nəzərdə tutur. Eyni zamanda, zəhərli yanacaqların dövriyyədən çıxarılması, kənd təsərrüfatı və sənaye sahələrində, qanunvericilikdə, eksperimental fəaliyyətdə və qiymətlərdə tamamilə yeni qarşılıqlı əlaqə sahəsi yaradır. Onu da unutmamalıyıq ki, eko-yanacaq iqlim problemlərinin həllində ən təsirli üsullardan biridir.



Bütün suallar fonunda bir şey dəyişməz olaraq qalır: artan inkişafda ətraf mühitə və insanlara zərər verməyəcək yanacağa üstünlük verilir və bu prosesi dayandırmaq, yəqin ki, mümkün deyil. Hal-hazırda, yanacaq doldurmaq üçün bir neçə ekoloji cəhətdən təmiz formulalar qrupu təklif olunur - maye, qaz və hətta sıxılmış hava. Şərti olaraq bunları iki növə bölmək olar - əməliyyat və eksperimental.

Benzin və dizel yanacağının ekoloji dərəcəli yanacaqlarla əvəz edilməsinin məqsədi işlənmiş qazlardakı yüksək zəhərli birləşmələrin miqdarını mümkün qədər azaltmaq və ya nəqliyyat vasitələri üçün ən təhlükəsiz, ən təmiz növlər yaratmaqdır. Ətraf mühitə zərərli olmayan yanacaqlara gəldikdə, bunlar qaz qarışıqları, bio birləşmələr, etil məhsullarıdır.

Belə yanacaq növləri hazırda ən çox yayılmışdır. Mayeləşdirilmiş karbohidrogen propan-butan qarışığı (LPG) və sıxılmış təbii qaz metan (CNG) müxtəlif ölkələrdə uğurla istifadə olunur.

Qeyd etmək lazımdır ki, zəhərli maddələrin atmosferə atılmasının müəyyən faizi propan-butan qarışığında mövcuddur, lakin onların həcmini az hesab etmək olar. Eyni zamanda, metan geniş istifadə olunan yanacaqlar arasında ekoloji cəhətdən ən təmizdir, çünki o, neft emalı prosesində əldə edilən məhsul yox, təbii qazdır.

Hazırda biodizel avtomobillər üçün davamlı keyfiyyət təmin edə bilən və "bio" kateqoriyasına uyğun gələn bir neçə növ yanacaq var:

Biodizel və bioqazin - həm yanacaq, həm də əlavə məhsul kimi istifadə olunur;

Bioetanol - yanacaq qarışığının tərkib hissəsi kimi təsirli olan bitki xammalından alınan adi etil spirtidir. (C2H5OH);

Biobutanol - butil spirti, benzinə əlavə olaraq istifadə edilə bilir və eyni performansa malikdir.

Dimetil isə eter müstəqil yanacaq növüdür.

Biodizel, xüsusən də Aİ ölkələrində avtomobil sahiblərinin etibarının reytinqində liderlər sırasındadır. Bu yanacaq növünün istehsalı üzrə rekordçu Almaniyadır. Burada 50-yə yaxın müəssisə və minlərlə fərdi mini qurğu tikilib fəaliyyət göstərir. Biodizel təbii xammaldan hazırlanır və əslində mayonez və ya bitki yağlarının tərkibinə təxminən oxşar olan trigliseridlər və yağ turşularının qarışığıdır. Xammal ən çox kənd təsərrüfatı bitkiləridir: məsələn, kolzadan, soydan və s. alınır.

Bioqazin başqa istehsalın məhsuludur, yüngül benzin fraksiyalarının efirlər, karbohidrogenlər, metil spirti və çoxfunksiyalı əlavələrlə qarışığıdır.

ABŞ və Braziliya ümumi həcmin 90%-ni tutaraq son dərəcə təmiz yanacaq növlərindən birinin istehsalı üzrə bazarda liderdirlər.



Hər iki yanacaq növünün ekoloji cəhətdən təmizliyinin mütləq olmamasına baxmayaraq, eyni yanacaqların ənənəvi növləri ilə müqayisədə həm biodizel, həm də biobenzin istehsalında zərərli emissiyaların payı əhəmiyyətli dərəcədə azalır.

Bitki yanacağı - biodizel hətta qəza zamanı yerə, su hövzələrinə tökülsə də, ətraf mühitə zərər vermədən 2-3 həftə ərzində bakteriyalar tərəfindən tamamilə parçalanır. Əla yağlama keyfiyyətlərinə malik olsa da, biodizel hələ də daxili yanma mühərrikinin gücünü azaldır.

Bütün yanacaq növlərini populyarlıq və yayılma baxımından deyil, ətraf mühit üçün təhlükəsizlik baxımından nəzərdən keçirmək lazımdır.

Ən böyük istehsalçılar tədricən dimetil eterdən istifadə edərək avtomobil istehsalına keçirlər: "Ford", "Nissan", "Volvo" sənayesinin liderləri kifayət qədər geniş istifadə olunur. 15 ildir - həm dövlət, həm də şəxsi nəqliyyat vasitələri və sfenomen dövlət sifarişləri ilə tam dəstəklənir. İsveç və Danimarka kimi Skandinaviya ölkələri bütün ictimai nəqliyyatı dimetil efirə verib. Bu, həqiqətən ucuz, ekoloji cəhətdən təmiz və mühərriklər üçün yağ tərkibli yanacaqlara etibarlı alternativdir.

Mühəndislərin fikrincə, bu, avtomobili maye yanacaqla işə salmağa və bütün səyahətin 80%-ni silindrdən gələn hava axınının enerjisi ilə idarə etməyə imkan verir. Kiçik daşıma qabiliyyəti (~ 500 kq) olan bir avtomobil 105 litr həcmli hava çəni ilə təxminən 15-16 km sürə bilir.

1990-cı illərdə dünyada hər şeyə qarşı təşəbbüskar və nəzakətli yaponlar qərara gəlmişdir ki, yemək üçün yararsız olan yağları kənarlaşdırmasınlar. 20 il sonra ABŞ-da bu təşəbbüsü dəstəkləyərək - böyük bir laboratoriyada faydalı olan hər hansı bir məhsulun ikinci istifadəsi ilə bağlı təcrübələr aparıldı. İki ölkənin təcrübəsi göstərdi ki, yaponlar uzun illərdir ki, hər şeydən çıxarılan yanacaqla maşın sürə bilirlər, qalan dünya isə bunu necə edəcəyini düşünür.

1 milyon işlənmiş yağ və piylər 500 000 ton yağa və ya 3 665 689 barelə bərabərdir. Bunun 91 min 642 litri dizel yanacağı istehsal oluna bilər ki, bu da hər barel neftdən 40 litrdir. Bir minik avtomobilinin ildə orta yürüşü təxminən 20 min km olarsa, dizel yanacağına illik ehtiyac 900 litr olacaqdır. 91 642 litr isə il ərzində 102 avtomobili doldurmaq üçün kifayət edir.

## Bəs ölkəmizdə vəziyyət necədir?

Azərbaycanda sürücülərin 85%-dən çoxu yanacaqdoldurma məntəqələrində satılan yanacağın keyfiyyətindən narazıdır. Media Təhlil Mərkəzinin, SOCAR-ın açıqlamasına görə, yanacağın keyfiyyətinin artırılması hələ 2022-23-cü illərdə baş tutacaq. Artıq sürücülər əzbər bilirlər ki, hansı yanacaqdoldurma məntəqəsi benzindən nə qədər kəsir və ya hansında yanacağın tərkibi daha çox çirklidir. Bunu sürücülər kimi müvafiq qurumlar da yaxşı bilirlər. Ancaq heç kim bunun üzərinə getmir. SOCAR dəfələrlə açıqlama verib ki, onlar yanacaqdoldurma məntəqələrinə qatqısız, standartlara uyğun yanacaq satırlar.

Ölkəmizdə nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviq edilməsi sahəsində təhlillərin, qiymətləndirmələrin aparılması və müvafiq təkliflərin hazırlanması üzrə icaslarda ekoloji təmiz nəqliyyata keçidin dəstəkləyici tədbirləri müzakirə olunur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "Təmiz ətraf mühit və "Yaşıl artım" ölkəsi" prioritetlərdən biridir. Prioritetlər toplusunda qeyd edilir ki, qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir.

*Havar Şəfiyeva*



# YAP-ın təsis edilməsinin 30 illiyinə həsr olunmuş mini futbol turnirinə start verilib





**Oktyabrın 15-də Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş minifutbol turnirinə start verilib. SİA xəbər verir ki, YAP üzvü və bitərəf gənclər arasında sağlam həyat tərzinin təşviqi və həvəskar minifutbolun təbliği məqsədilə keçirilən turnirdə ümumilikdə 900-ə yaxın gənc iştirak edir.**

12 qrupda 72 komandanın mübarizə apardığı turnirin qrup mərhələsinin ilk günündə qalib gələn 36 komanda növbəti mərhələyə vəsiqə qazanıb.

Qrup mərhələsinin ikinci gününün oyunlarından sonra hər qrupun qalib komandası turnirin "play-off" mərhələsinə vəsiqə qazanıb. Ümumilikdə, "play-off" mərhələsində 12 komanda qarşılaşacaq.

*Banuçiçək Hüseynli*



# "Azərbaycan regionda aparıcı dövlətlərdən biridir"



POLİTOLOQ ŞƏRH ETDİ

"Azərbaycan prezidentinin beynəlxalq tədbirlərdə iştirak etməsi önəmli rol oynayır". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib.

Onun sözlərinə görə, Azərbaycan prezidentinin regional və dünya liderləri ilə birgə görüşlərdə iştirak etməsi, eyni zamanda ünsiyyətdə olması Azərbaycanın mesajlarının çatdırılması baxımından əhəmiyyətlidir: "Eyni zamanda, problemlərlə bağlı Azərbaycanın iradlarının çatdırılması baxımından mühüm rol oynayır. İlk öncə vurğulamalıyam ki, milli maraqlar nəzərə alınaraq diplomatik münasibətlər uğurla davam edirilir. Azərbaycan prezidentinin çıxışları hər zaman maraqla qarşılanır. Azərbaycan regionun aparıcı ölkələrindən biridir. Azərbaycan regionda gedən prosesləri müəyyən edən aparıcı dövlətlərdən biridir. Yalnız siyasi proseslər deyil, eyni zamanda iqtisadi proseslərdə idarə edən dövlətlərdən birinə çevrilib. Əlbəttə ki, Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışan ölkələr Azərbaycanla münasibətləri quraraq öz maraqlarını daha dolğun və yüksək səviyyədə əks etdirə bilirlər".

Politoloq sözlərinə əlavə edərək qeyd edib ki, Azərbaycan prezidenti İlham Əliyevin xüsusilə MDB ölkələrinin sammitindəki çıxışı olan gerçəklərin açılması və digər ölkə başçılarına çatdırılmasına nail oldu: "Ermənistanın destruktiv siyasəti ilə bağlı iradların bildirilməsi də vacibdir. Çünki məhz Ermənistanın destruktiv siyasəti regionda gedən proseslərin ahəngini pozur. Digər region ölkələrinin maraqlarına zidd çıxış edir. Cənab prezidentin söylədiyi fikirlər həm Azərbaycanın nüfuzuna müsbət təsir göstərir, həm də digər ölkələrin Azərbaycanla münasibətlərini daha yüksək pillələrə çıxarılmasıda əsas rol oynayır".

*Qönçə Quliyeva*



MƏTANƏT

# Zəfər memarları və biz...

**Biz 30 il əzəli torpaqlarımızdan aralı qaldıq. 30 ilin həm əvvəlində, həm də axırında minlərlə şəhid verdik, qazi qazandıq. Yüzlərlə itkinimiz oldu ki, bu gün də gözlərimiz yollarda onları axtarır, onları gözləyirik.**

Biz torpaqlarımızı itirmişdik. 30 il idi ki, əzəli yurdlarımız yağı tapdağı altında idi. Sərvətlərimiz talan edilmiş, yurdlarımız viranəyə çevrilmişdi. 30 ilin əvvəlində dövlətimizə rəhbərlik edənlərin bağışlanmaz günahı ucbatından itirdiyimiz torpaqlarımız və 30 ilin sonunda işğaldan azad edilmiş torpaqlarımız uğrunda canından, sağlamlığından keçən Vətən oğullarının böyük əksəriyyəti şəhid və qazi oldu.

Dövlətimiz həm Birinci, həm də İkinci Vətən müharibəsində şəhid olan vətəndaşlarımızın ailələrinə, həm də qazilərimizə hərtərəfli köməklik, diqqət, qayğı göstərir. Onlar mənzillə, avtomobillə təmin olunur, birdəfəlik pul yardımları alır, yaranan bütün problemləri dərhal aradan qaldırılır.

Bəli, dövlətimiz hər an öz şəhidinin ailəsinin və qazilərimizin arxasındadır. Lakin bir sual meydana çıxır: şəhid ailələrinə və qazilərimizə qayğı tək dövlət tərəfindən göstərilməlidirmi? Əlbəttə ki, xeyr. Onlara qayğı hər bir vətəndaşın, xüsusilə şirkət rəhbərlərinin, sahibkarların, ümumilikdə hər kəsin borcudur. Lakin bunu edirikmi?

Canlarını Vətənimiz, torpaqlarımız, ərazi bütövlüyümüz yolunda qurban verən şəhidlərimiz, sağlamlıqlarını itirən qazilərimiz- Zəfərimizin memarları bizim hamımızın 30 illik nisgilinə, kədərinə son qoydular. 30 il əvvəlki şəhidlərimiz də ərazi bütövlüyümüz, Vətənimiz üçün canlarından keçmişdilər. Onlar ümumilikdə bir amal üçün döyüşdülər, şəhid və qazi oldular.

Torpaq namus, şərəf məsələsidir. Onlar bizim namus və şərəfimizmi xilas və azad etdilər. Mənliyimizi, mənəviyyatımızı - torpağımızı bizə qaytarıb, özləri bu dünyadan köç etdilər və yaxud da sağlamlıqlarını itirib bir ömür məhdud sağlamlıqla yaşmağa məcbur oldular.

Belə isə onların həyat yoldaşına, övladlarına qayğı, kömək, diqqət nə üçün tək dövlətimizin üzərinə düşməlidir? Bizim milli sərvətlərimiz hesabına milyonlarla gəliri olan şirkət sahiblərimiz, sahibkarlarımız, iş adamlarımız var. Nə üçün gözləyirlər ki, şəhid ailələrinin və qazilərin bütün problemləri dövlət tərəfindən həll olunsun? Onlar şəhid ailələri və qazilərimiz üçün nə lazımdırsa, edə bilərlər. Özlərinin işə, övladlarının baxçalara düzəlməsində, gündəlik qarşılaşdıqları bütün problemlərin həllində yardımçı ola bilərlər. Ayrı-ayrı rayonlarımızda onlarla belə şəxslər var. Düzdür, eşidirik də, bilirik də ki, onlar arasında şəhid ailələrinə və qazilərimizə köməklik göstərən, qayğıları ilə maraqlananlar var. Lakin biz onların daha çox sayda olmasını arzu edirik. Çünki şəhid və qazilərimiz hər birimizin övladıdır. Onların arxada qoyduqları ailələri, övladları da hər birimizin bacı- qardaşı, övladı olmalıdır.

Yenə də vurğulamaq istəyirəm. Dövlətimiz onlara hərtərəfli qayğı göstərir. Lakin biz də öz növbəmizdə köməkliyimizi göstərməli, onlardan diqqətimizi əsirgəməməliyik. Onlar heç bir problemlə üzləşməməlidirlər. Çünki onların bu gün olmayanları-şəhidlərimiz və sağlamlığını itirənləri-qazilərimiz bizə torpağımızı bəxş ediblər.

Biz bu dünyada yenə də həyatımıza istədiyimiz kimi davam edirik. Onlar isə bizim xoşbəxt, azad, suveren yaşamağımız üçün canlarını, sağlamlıqlarını qurban veriblər. Arxada qoyduqlarını isə bizlərə əmanət ediblər. Belə olan halda onlara qayğı hər bir vətəndaşın işidir, borcu və vəzifəsidir.

Elə kiçik problemlər var ki, onları yerindəcə həll etmək asandan asandır. Lakin bəzi hallarda həmin problemləri böyüdüb dövlət qurumları səviyyəsinə qaldırırıq. Bizə bu, yaraşarmı? Şəhid ailəsinin bir nümayəndəsinin və hər hansı qazimizin problemini həll etməyə, ailəsinə baş çəkməyə, qayğıları ilə maraqlanmağa, ehtiyaclarını vaxtında həll etməyə bizlər axı borcluyuq. Biz bunu etməliyik. Bacarmırıqsa, dövlətimizdən öyrənməliyik. Dövlətimiz şəhidinin ailəsini, qazisini necə diqqətdə saxlayırsa, ona qayğı göstərirsə, bizlər də bunu etməyə borcluyuq. Unutmayaq ki, onların hesabına bu gün qürurla danışırıq. Onların hesabına sülh və əmin-amanlıq şəraitində yaşayırıq və qazanırıq...

ANALİTİK+AKTUAL

# Dünya erməni vandalizminə və terroruna qarşı susmamalıdır!

*Azərbaycan xalqı da məhz bu addımları gözləyir!*



**Tarixi Qərbi Azərbaycan torpaqlarında, indiki Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlığın erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmasının və həmin kirli aktın videosunun sosial şəbəkələrdə yayılmasının ardınca müxtəlif beynəlxalq təşkilatların susqunluğu çoxqütblü dünyada ikili standartların mövcudluğunu bir daha sübuta yetirdi.**

## İsbatlanmalıdır ki, reallıqda vəhşilər, vandallar və daim bizləri terrorla hədələyənlər kimlərdir!

Məhz bu faktın özü bir daha isbatladı ki, dünyada bərabərlik və ədalət prinsipi üzərində qurulmalı olan tendensiyalar heç də təməlli əsaslar üzərində qurulmayıb. Biz bu xüsusda sual edə bilərik ki, axı necə olur, heç bir isbatı olmayan, daha çox saxtakarlığı ilə seçilən "ermənilərin güllələnmə" videosu düşmənlərimiz tərəfindən



ictimailəşdiriləndən sonra Avropanın, Qərbin bəlli şəxsləri və təşkilatları dərhal üstümüzə hücumlar çəkdilər, hətta sanksiyaların çıxarılması yönündə tələblər irəli sürüldü, amma son zamanlar istər Birinci Qarabağ müharibəsində, istərsə də hazırkı dövrdə erməni vəhşiliyini isbatlayan videofaktlara susqun qalınır?

Bu sualın cavabı məlumdur və nəticəyə gələ bilərik ki, məhz belə videolar anti-Azərbaycan xarakterli fəaliyyət göstərən qurum və təşkilatların, eləcə də ayrı-ayrı şəxslərin sosial şəbəkə hesablarına, email adreslərinə gösnərilməli, sözün əsl mənasında üzlərinə çırpılmalıdır. İsbatlanmalıdır ki, reallıqda vəhşilər, vandallar və daim bizləri terrorla hədələyənlər kimlərdir!

Başqa tərəfdən, azərbaycanlılara məxsus məzarların dağıdıldığını əks etdirən videogörüntülərin harada qeydə alınmasına baxmayaraq (iddialara görə Basarkeçərdə) bu kimi faktların hər biri insan haqları məhkəmələrində dəlil olaraq Ermənistana qarşı qaldırılmalıdır. Özü də gördüyümüz kimi, bu videodakı şəxslər və oradakı yük maşınının dövlət qeydiyyat nişanı da məlumdur və həmin vandalların, həmin vəhşilərin kimlikləri məlum olduğu üçün onlar dərhal öz cinayətkar əməllərinə görə cəzalandırılmalıdırlar. Belə ki, məzarlığın dağıdılması - tarixi təhrif edərək azərbaycanlıların izini silmək cəhdi kimi də qiymətləndirilə bilinər.

## YUNESKO ikili standartlardan çıxış etməyi isə bir kənara qoymalıdır!

Digər tərəfdən, baş verənlər rəsmi Bakının Ermənistan ərazisindəki azərbaycanlılara məxsus tarixi-mədəni abidələrin taleyinin YUNESKO tərəfindən araşdırılması üçün missiyanın yaradılması təklifinin aktuallığını bir daha göstərir və adıçəkilən beynəlxalq qurum mütləq şəkildə bu hadisəni nəzarətinə almalı, ikili standartlardan çıxış etməyi isə bir kənara qoymalıdır. Çünki məhz YUNESKO-nun laqeyd münasibəti fonunda erməni tərəfi Azərbaycan xalqına yüz illiklər boyu yaratdığı mədəni-tarixi irsi dağıtmaqda davam edir. YUNESKO 1954-cü ilin Haaqa Konvensiyasının şərtlərinin kobudcasına pozulmasına göz yumduqca, dağılan abidələrin, məzarlıqların, məscidlərin sayı artır. Bu baxımdan, artıq ciddi hərəkətə keçməyin vaxtıdır.





Yeri gəlmişkən, sözügedən hadisənin həm də 44 günlük Vətən müharibəsi dövründə Gəncəyə edilən ən qanlı raket hücumunun ildönümü ərəfəsində üzə çıxması isə bu kimi məsələlərin ictimailəşməsinə, aktuallaşmasına daha geniş zəminlər yaradır. Bütövlükdə götürəndə isə, Gəncədə dinc insanlara qarşı endirilən düşmənin raket zərbəsi 1988-ci ildən başlayaraq müxtəlif dövrlərdə qatarlarımıza, avtobuslarımıza, bərələrimizə və sairlərə qarşı törədilən terrorun davamı faktıdır.

## Dipmissiyalarımza edilən hücumlar erməni terror təşkilatlarının diplomatlara qarşı ənənəvi terror siyasətinin davamıdır!





Ermənistandakı revanşist qüvvələrin bu gün də qan-qada dili ilə danışmaq cəhdləri artıq xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərimizə, toxunulmazlıq statusu daşıyan dipmissiyalarımıza, konsulluqlarımıza qarşı da uzanmaqdadır. Fransada, Livanda edilən xain hücumlar, habelə ABŞ-da səfirliyimizə məxsus avtomobilimizin güllələnməsi erməni terror təşkilatlarının diplomatlara qarşı ənənəvi terror siyasətinin davamıdır.

Söz yox ki, bu kimi əməllərin qarşısının alınması üçün daha çevik hərəkətlərə keçməyin tam zamanıdır və Azərbaycan xalqı öz dövlətinin, hakimiyyətinin yanında olmaqla daim öz sözünü deməyə qadirdir. Lakin eyni zamanda, beynəlxalq təşkilatlar da üzərlərinə düşən missiyalarına ikili stnadrtlardan kənar, ədalət prizmasından yanaşmalı və bu kimi cinayətləri törədən erməni vandallarına, terrorçularına qarşı lazımi tədbirlər görüləcəkdir - Azərbaycan xalqı da məhz bu addımları gözləyir!

**Rövşən RƏSULOV**

# Dövlət başçısı Azərbaycan həqiqətlərini bir daha dünyanın diqqətinə çatdırdı



Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasındakı çıxışında regionda yaranan vəziyyətlə bağlı bir sıra əsas məsələləri diqqətə çatdırıb. Ölkə rəhbəri nitqinin əvvəlində Azərbaycan ərazilərinin işğalı dövründə bu mövzunu MDB çərçivəsində heç vaxt müzakirəyə çıxarmadığını bir daha xatırladaraq, bunun səbəbini münaqişənin nizamlanması ilə ATƏT-in Minsk qrupu məşğul olması ilə əlaqələndirib. Prezident İlham Əliyev daha sonra Minsk qrupunun 28 illik fəaliyyətinin heç bir nəticə vermədiyini, indi göründüyü kimi, bu qurumun başlıca vəzifəsinin münaqişənin nizamlanması deyil, onun dondurulması məqsədi daşıdığını vurğulayıb. "Danışıqların aparılması münaqişənin hələ uzun illər həll olunmaması üçün yalnız pərdə idi. Beləliklə, münaqişə həll olunub. Azərbaycan beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, o cümlədən hər bir ölkənin özünümüdafiə hüququna malik olmasını nəzərdə tutan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq münaqişəni özü həll edib", -deyə Azərbaycan Prezidenti bildirib.

Yeri gəlmişkən, Ermənistan-Azərbaycan münaqişənin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunan ATƏT-in Minsk Qrupu fəaliyyətinin 29 ili ərzində dövlətimizin başçısının vurğuladığı kimi, məsələnin həllinə yox, dondurulmasına çalışıb və bununla da uzun bir dövrdə aparılan danışıqlar nəticəsiz qalıb. Həm işğalçıya, həm də işğala məruz qalan tərəfə eyni münasibət bəslənilib və beynəlxalq qətnamələr kağız üzərində saxlanılıb. Məsuliyyətli ölkə olaraq Azərbaycan isə daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək, münaqişənin danışıqlar vasitəsilə həllinə çalışıb. Digər bir mötəbər beynəlxalq təşkilat olan BMT-də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirib, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənib. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altındakı Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra olunmayıb.

Beləliklə, cəzasızlığı görən Ermənistan isə daha da irəli gedərək, Azərbaycanı yeni torpaqlar uğrunda yeni müharibə ilə hədələyib, dövlət sərhədi və keçmiş təmas xətti boyu hərbi təxribatlara əl atıb.

Prezident İlham Əliyev çıxışında münaqişədən sonrakı vəziyyətə toxunaraq, bununla bağlı həmkarlarımı son dövrlər ərzində baş verənlərlə bağlı məlumatlandırıb: "Sentyabrda - demək olar bir ay bundan əvvəl Azərbaycan-Ermənistan sərhədi ərazisində silahlı toqquşmalar baş verdi. Bu silahlı toqquşmaların səbəbləri bəllidir - Azərbaycana münasibətdə terror, ilk növbədə, mina terroru və snayper terroru davam edir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanın 250-dən çox vətəndaşı əsasən, işğal dövründə basdırılan minaların partlaması nəticəsində ya həlak olub, ya da ciddi xəsarət alıb. Eyni zamanda, bizim tərəfimizdən Ermənistan istehsalı olan piyada əleyhinə 1400 mina aşkarlanıb. Bu minalar 2021-ci ildə Laçın rayonu ilə sərhəd ərazidə basdırılıb. Həmçinin Azərbaycanın bir hərbi mövqeyindən digərinə aparan yollar minalanıb...".

Bəli, bu gün Ermənistan siyasi rəhbərliyinin həmin hadisəyə öz mənafeyi baxımından şərh verməsinə baxmayaraq, silahlı toqquşmada əsas günahkar işğalçı tərəf olub. Bəzilərinin hesab etdiyi kimi, Azərbaycan Ermənistan ərazisinin bir qarışını belə ələ keçirmək niyyəti güdməyib. Bunu həmin hadisənin nəticəsi də aydın göstərib. Belə ki, Azərbaycan sözügedən erməni təxribatından sonra nə bir şəhəri, nə də bir kəndi işğal etməyib. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində silahlı toqquşmalar dayandırılıb.

Yuxarıda xatırladılan hadisə ilə bağlı onu da deyək ki, Azərbaycan bu silahlı təxribatı cavabsız qoymayıb. Ərazi bütövlüyümüzə təhlükəni neytrallaşdırmaq, hərbi qulluqçuların, habelə şərti dövlət sərhədinin yaxınlığında həyata keçirilən bərpa layihələrinin icrasında iştirak edən mülki şəxslərin təhlükəsizliyi üçün adekvat addımlar atıb. Özü də bu zaman Ermənistanın provokasiyalarına cavab tədbirləri məhdud xarakter daşıyıb və ancaq legitim hərbi hədəflərə yönəlib.

Belə bir şəraitdə Ermənistan həmişə olduğu kimi, yenə də öz fitnəkarlığını pərdələmək üçün davamlı dezinformasiya yaymağa üstünlük verib. İşğalçı ölkədə həyasızlıq o həddə çatıb ki, erməni sosial şəbəkələrində Ermənistan ərazisində məhv edilən mülki obyektlərin foto-şəkilləri yerləşdirilib. Əslində isə həmin "faktlar" 2020-ci ilin payızında Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin raket zərbələri ilə dağıdılan Azərbaycan mülki obyektlərinin, xüsusən şiddətli raket atəşinə məruz qalan Bərdə şəhərinin fotoşəkilləri olub.

Prezident İlham Əliyev çıxışında postmünaqişə vəziyyətinin digər aspektlərinə, məsələn, azad edilmiş ərazilərin bərpası məsələsinə də toxunub. Ölkə rəhbəri Qarabağ və ətraf ərazilərin-kənd və şəhərlərin işğal dövründə yerlə bir edildiyini, bu torpaqlarda demək olar ki, bir salamat bina qalmadığını, 67 məsciddən 65-nin dağıdıldığını diqqətə çatdırıb. Dövlət başçısı bütün bunların isə Azərbaycan xalqına və bütün müsəlman dünyasına qarşı ifrat dərəcədə nifrətdən xəbər verdiyini vurğulayıb.

Azərbaycan lideri çıxışında ölkəmizin haqq mübarizəsindən dərhal sonra Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olduğunu, bu istiqamətdə fəal iştirak etdiyini, predmetli danışıqların aparılmasına qarşıya əsas məqsəd kimi qoyduğunu, lakin buna baxmayaraq, işğalçı ölkənin bu prosesə o qədər də maraq göstərmədiyini diqqətə çatdırıb.

***Şirincan MƏMMƏDLİ,***
***126 nömrəli tam orta məktəbin tarix müəllimi, "Tərəqqi" medallı***

**TƏRS BAXIŞ**

## Araik İrəvandan pəjmürdə dönüb: Xankəndidə isə cinayətlər artır



Uzun müddət gözlədildikdən sonra nəhayət başda Nikol Paşinyan olmaqla Ermənistanın rəsmi şəxsləri bir həftə idi İrəvanda qəbul saatını gözləyən Qarabağ separatçılarının başçısı Araik Arutyunyanla görüş keçirdilər. Keçirilən görüşlərdə aparılan müzakirələrin əsas mahiyyəti açıqlanmasa da, bəri başdan məlumdur ki, Araik Arutyunyan özü də daxil olmaqla Nikol Paşinyana separatçı-quldur rejimi təmsil edənlərin müqəddəratlarının necə olacağı, eləcə də törətdikləri cinayətlərdən hansı yollarla boyun qaçıracaqları, həmçinin növbəti dəfə onlara maliyyənin ayrılıb-ayrılmayacağı ətrafında suallar ünvanlayıb. Bütün bunlardan sonra o geriyə - Xankəndiyə dönüb...

### Hər şeydən əli üzülən separatçı-quldur rejim danılmaz fakt qarşısında qalıb

Artıq qondarma rejimin saxta "prezidentinin" sözdə köməkçisi rolunu daşıyan Lusine Avanesyan erməni mətbuatına açıqlamasında bildirib ki, Araik Arutyunyan "artsaxın" qurama "1-ci ictimai kanalına" İrəvandakı görüşləri barədə müsahibə verəcək və məhz bundan sonra ictimaiyyət mövzu ilə bağlı daha geniş məlumatlara sahib olacaq. Yəni görünən budur ki, artıq hər şeydən əli üzülən separatçı-quldur rejim danılmaz fakt qarşısında qalıb və əslində Azərbaycanın üçtərəfli bəyanatın 4-cü bəndi əsasındakı tələblərini icra etməkdən başqa yolun olmadığı da göz önündədir. Bütün qanunsuz erməni silahlı birləşmələri Qarabağdan çıxarılacaq və Azərbaycanın qanunları altında yaşamaq istəyən ermənilər vətəndaşlıq alacaqlar. Qalmaq istəməyənlər üçün isə Ermənistana yol açıqdır...

### Biri bankomatları mişarlayır, digəri poçtu talan edir, daha biri isə özünü güllələyir...

Lakin daha bir maraqlı məqam diqqətləri cəlb etməyə bilməz. Belə ki, son proseslər zamanı Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altındakı ərazilərimizdə ermənilər tərəfindən törədilən cinayətlərin sayı durmadan artır. Qətl, oğurluq və s. kimi cinayət əməllərinin demək olar ki, sayı-hesabı yoxdur. Bunu elə erməni sosial şəbəkələri, həmçinin KİV-ləri də yazırlar. Misal üçün, məlum olub ki, Ağdərədə naməlum şəxs "artsaxbanka" məxsus bankomatı elektrik mişarı ilə doğrayıb və oradan 7 951 000 erməni dramını oğurlayaraq qaçıb. Bənzər hadisə Əsgəranda da baş verib. Belə ki, yenə də naməlum şəxs poçt binasına daxil olub və işçiləri əlindəki qumbara ilə hədələyərək kassadan müəyyən məbləğdə pul vəsaiti aparıb.

Daha bir olay isə Xankəndidə yaşanıb. Yerli KİV-lər yazırlar ki, oktyabrın 17-də, səhər saat 06:30 radələrində "artsax polisinə" məlumat daxil olub ki, şəhərin "Azadlıq mübarizləri" küçəsində meyit aşkarlanıb. Hadisə yerinə gedən "polis" müəyyən edib ki, 40 yaşlı kişi meyiti Xankəndi sakini A.A-ya məxsusdur və o, sübh vaxtı, təxminən saat 04:00-da şəxsi tapançasından açdığı atəş ilə intihar edib.

### Artıq vaxt çatıb...

Söz yox ki, bu kimi cinayət insidentlərinin sayının artmasının daha bir səbəbi artıq orada yaşayan hər kəsə gün kimi aydındır. Onlar yaxşı bilirlər ki, Xankəndi Azərbaycanın ayrılmaz parçasıdır və gec, ya da tez sağlam düşüncəyə malik olanlar Azərbaycan vətəndaşlığını qəbul edib normal həyatlarına geri dönməyə müvəffəq olacaqlar.

Yerdə qalan revanşist, terror xisləti separatçı-quldur dəstələri isə ya Ermənistana rədd olmalı, ya haqq elədikləri cəzalarını almalıdırlar. Belə bir xaoslu situasiya isə əvvəl-axır onların içlərinə yaşanmalı idi. Çünki bütün bunların baş verəcəyi ilə bağlı separatçı-quldurlara dəfələrlə xəbərdarlıqlar edilmişdi. Artıq vaxt çatıb...

***Rövşən RƏSULOV***

## "Ermənistanın sülhə sadiq qalacağına inanmıram"

"Praqada keçirilmiş dördtərəfli görüşdən sonra tərəflər ilin sonuna qədər sülh müqaviləsinin imzalanmasına hazır olacağını bildiriblər". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib. Onun sözlərinə görə, bununla əlaqədar XİN-ləri və işçi qrupları görüşlər keçirməli və sülh müqaviləsinin hazırlanması üzərində işləməlidirlər: "Hətta Praqa görüşündən sonra da Ermənistan tərəfi ilin sonuna qədər Azərbaycanla sülh müqaviləsinin imzalanacağını açıqlayıb. Əlbəttə ki, Ermənistan konstruktiv mövqe sərgiləyərək nəzərdə tutulduğu kimi sülh müqaviləsinin hazırlanması üzərində iş aparılarsa sülh müqaviləsi imzalana bilər. Amma Ermənistanın açıqlanması çətin inandırıcıdır. Çünki, bu dövlətin rəhbəri səmimiyyətdən uzaqdır. Müharibənin bitdiyi iki ildə Paşinyan çoxlu vədlər verib. Amma icrasına gələndə həmişə onun əksini müşahidə etmişik. İndi də ilin sonuna qədər sülh müqaviləsinin imzalanması ilə bağlı açıqlamasına Ermənistanın sadiq qalacağına inanmıram. Düzdür, ölkələr arası münasibətlərin yenidən formalaşması və regiona davamlı sülhün gəlməsi üçün müxtəlif səviyyələrdə və formatlarda görüşlər çox keçirilməlidir. Bununla yanaşı ehtiyatımızı əldən verməməli və ordumuzun mövqelərini daha da gücləndirilməsini təmin etməli olduğunu hesab edirəm".



***Gülyana***

# Yoxsulluq bəlası: dünyada və Azərbaycanda vəziyyət necədir?

**Yoxsul ölkələrdə aclıq probleminin yaranmasında böyük dövlətlərin siyasi və iqtisadi maraqlarını təmin edən faktorların payı, təbii fəlakətlərin payından az deyil**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azzərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" çərçivəsində hazırlanıb.

Müasir dünyanın qarşılaşdığı ən böyük problemlərdən biri də yoxsulluq və aclıqdır. Təxmini hesablamalara görə, dünya əhalisinin 15 faizi, başqa sözlə 250 milyonu uşaq olmaqla 1 milyarda yaxın insan aclıqdan əziyyət çəkir. Əsasən, xammal bazası olan inkişaf etməmiş ölkələrdə və təbii resurslar cəhətdən kasad ölkələrdə müşahidə olunan yoxsulluq nədən yaranır, nəyə səbəb olur, niyə həll edilmir? Bu yazımızda bu məsələlərə aydınlıq gətirməyə çalışacağıq.

### 3-cü dünya ölkələrində aclığın əsl səbəbləri nədir?

Bütün dünyada yoxsulluq səviyyəsi Dünya Bankının təklif etdiyi metodologiya əsasında müəyyənləşdirilir. Bu metodologiyaya əsasən, gündəlik gəliri 2 dollardan aşağı olanlar yoxsul, 1 dollardan aşağı gəliri olanlar isə ifrat yoxsul hesab olunur.

Lakin bir çox hallarda bu metodologiya düzgün hesablama üçün kifayət etmir. Çünki elə ölkələr var ki, orada orta aylıq əmək haqqı 60 dollardan aşağıdır. Amma elə ölkələr var ki, orada 60 dollar heç gündəlik tələbatı ödəmir.

Azərbaycanda rəsmi məlumata görə, yoxsulluq səviyyəsi 10 il əvvələ nisbətən 5 dəfə aşağı düşərək hazırda 5 faiz civarında təşkil edir. Dövlət rəsmilərinin söylədiklərinə görə yaxın 4 il ərzində yoxsulluğun səviyyəsinin bundan da aşağı olacağı gözlənilir. Lakin, müstəqil ekspertlərin ümumi qənaətinə görə, bu göstərici reallıqda azı 2-3 dəfə artıqdır.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Azərbaycanı aclığın ən aşağı səviyyədə, yəni 5%-dən aşağı olduğu ölkələrin siyahısına daxil edib. FAO-nun məlumatına görə, bu qərar yetərincə qidalanmanın yayılması barədə mövcud olan ən son məlumatlara əsasən qəbul edilib. FAO-nun açıqlamasında bildirilir ki, qlobal iqtisadi böhran regiondakı digər ölkələrə nisbətən Azərbaycana daha az təsir edib.

Ərzaq qıtlığına səbəblər arasında təbii fəlakətlər mühüm rol oynayırsa, burada dünyada gedən siyasi proseslər, baş verən müharibələr də təsirsiz ötüşmür. Məlumdur ki, bu münaqişələrdə bəzi qlobal qüvvələrin də rolu böyükdür.

Tarix boyu dünyanın iqtisadi və enerji mərkəzlərində hərbi qarşıdurmalar, iğtişaşlar baş verib. Dünyanın iri dövlətlərinin, böyük korporasiyaların müəyyən strategiyaları var. Lazım olan vaxtı etnik münaqişələri alovlandıra bilir, istədiyi vaxt da yatırda bilirlər. Elə bir sistem qurulub ki, 3-cü dünya ölkələrinin sərvətləri istismar olunub qərb ölkələrinə danışır.

Sözügedən münaqişələrin nəticəsidir ki, istər enerji daşıyıcıları, istərsə də digər təbii ehtiyatlara malik ölkələrdə aclıq və səfalət hökm sürür. Belə bir halda dünyada ədalətli idarəetmə fəlsəfəsi meydana gəlir.



### Kasıb ölkələr müasir texnologiyadan uzaq saxlanılır

Yoxsulluq coğrafiyasına diqqət yetirdikdə belə bir məqam nəzərə çarpır: heç bir təbii resursu olmayan ölkələri bir kənara qoysaq, əksər belə ölkələr ya kənd təsərrüfatı, ya da hasilat sənayesi üzrə ixtisaslaşıblar və müasir texnologiyalar əldə etməyə çətinlik çəkirlər. Yoxsulluğun da bir çox hallarda təbii və süni fəlakətlərin nəticəsi olaraq ortaya çıxması bunu deməyə əsas verir. Belə bir ixtisaslaşmada məhz dünyanın inkişaf etmiş ölkələri maraqlı görünür.

Müasir texnologiyalara malik dövlətlər bu texnologiyanın başqa ölkələrə verilməsində maraqlı olmur. Tez-tez eşidirik ki, ABŞ və dünyanın digər iri dövlətləri kasıb ölkələrə kredit verir. Kreditlərin strukturuna baxanda görürük ki, bu kreditlər yalnız müəyyən əmtəələrin alınmasına verilir, məsələn ağır sənaye məhsulları.

Bu əmtəələr də kredit verən iri dövlətlərdə istehsal olunur. Bir sözlə onların verdikləri pullar faizlə birlikdə özlərinə qayıdır. Faktiki olaraq, özləri öz şirkətlərinə vəsait verərək dövlət sifarişlərini həyata keçirirlər. Kasıb ölkələr Qərbin bu siyasətinin qurbanı olmamaq üçün təhsilə və elmə ayırdığı pulu artırmalıdırlar.

### Uşaqların aclıqdan ölməsi bəşəriyyətin rəzalətidir

Hesablamalara görə, dünya ölkələrinin hərbi büdcəsi 1,5 trilyon dollardan çoxdur. Bir afrikalı uşağın ən azından acından ölməməsi üçün isə ayda 35 dollara ehtiyac var. Çox utandırıcı haldır ki, bir uşağın acından ölməməsi üçün bir ayda cəmi 35 dollar lazım olduğu halda dünyada silahlanmaya belə trilyonlarla pul xərclənir.

Böyük dövlətlər bütün sərvəti, rifahı özündə cəmləməklə özlərinə başqa bir problem yaradırlar. Məsələn, həmin ölkələrdən kütləvi qaçqın axını gəlir ki, onlar da həmin ölkələrə əlavə yük olur. Təbii ki, bütün bunlar müəyyən qüvvələrə xidmət edir, əsasən də işçi qüvvəsinə ehtiyac olan. Lakin unudulur ki, səfalət işərisində olan bir ölkə qonşuluqda yaşayan varlı ölkə üçün təhdiddir.

Problemlər böyük dövlətlərin qarşıdurması ilə deyil, anlaşması ilə həll olunsa, ədalətli insan cəmiyyəti qurulsa, təbii ki, dünyada aclıq və səfalət də aradan qalxar. Hazırkı ərzaq istehsalı normal istifadə olunduğu və düzgün bölüşdürüldüyü halda 12-15 milyard adamı təmin edəcək gücdə olduğu halda dünyada 1 milyard ac var, daha 2 milyard isə yarıac şəkildə yoxulluq içində yaşayır. Hesablamalara görə, təkcə ABŞ və Böyük Britaniyada bəyənilməyib zibilliyə atılan qidalarla 1 milyard insanı aclıqdan xilas etmək olar. Dünya nemətlərinin 80 faizlık böyük hissəsini cəmi 20 faiz əhali istehlak edir, qalan 80 faiz əhali isə cəmi 20 faizi ilə dolanır. Belə olan halda humanizmdən danışmağa dəyərmi?

Dünyanın potensialı ən azı 50-60 milyard insanı tam təmin etmək gücündədir. XXI əsrdə acından insanların ölməsi bəşəriyyətin ən böyük rəzalətidir. BMT ekspertlərinin qənaətinə görə, müəyyən proqramlar həyata keçirməklə bu problemi 20 ilə aradan qaldırmaq mümkündür. Təbii ki, əgər imperialist maraqları böyük dövlətlərə imkan versə.

### Azərbaycanda yoxsulluq səviyyəsi necədir?

15-20 il qabaq rəsmi rəqəmlərdə Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizə yaxın göstərilirdi. Son illərdə bu rəqəmlər yüksək templə azaldılmağa doğru davam edib və son illərdə 5-6 faiz civarında göstərilir. 2019-cu ildə 5 faizdən aşağı düşmüşdü, pandemiya və qlobal iqtisadi böhranlar bu rəqəmin yenidən artmasına səbəb olub və hazırda 6 faizdən yuxarıdır. Son 1 ildə gündəlik tələbat məhsullarının qiymətində müşahidə olunan ardıcıl bahalaşmalar aztəminatlı təbəqənin yoxsullaşmasına səbəb olur. Bunun qarşısını almaq üçün dövlət tərəfindən müəyyən addımlar atılır. Maaş və pensiyaların, sosial yardımların artırılmasına hazırlıq gedir.

Qeyd edək ki, Azərbaycanda yoxsulluq həddi adambaşına 200 manat götürülür. Yəni, 5 nəfərlik ailənin yoxsulluq həddində yaşaması üçün ən pis halda 1000 manat aylıq gəlir olmalıdır. Lakin ailələrin əhəmiyyətli bir hissəsi üçün bu qədər gəlir etmək çətindir. Xüsusən də, ailədə 1 nəfər işləyirsə. Ölkədə minimum əməkhaqqı 300 manat, orta əməkhaqqı isə 700 manat civarındadır. Bu isə, bir ailəni minimum səviyyədə təmin etmək üçün kifayət deyil. Bu səbəbdən hökumət iş yerlərinin artırılmasına, sosial müdafiənin gücləndirilməsinə, maaş və pensiya artımlarına daha ciddi yanaşmalıdır.

### Həssas qrupların sosial müdafiəsi necədir?

Həssas qrupların sosial müdafiəsinin səmərəli təşkil edilməsi dövlətin əsas vəzifəsidir. Sosial müdafiə sistemi ölkənin sərvətinin müəyyən bir hissəsinin cəmiyyətin varlı təbəqəsindən yoxsul təbəqəsinə istiqamətləndirilməsində əhəmiyyətli hesab edilən mexanizmlərdən biridir.

Ehtiyac meyarının mütəmadi olaraq artırılması, ünvanlı yardımın təyin olunma və verilmə prosedurlarının sadələşdirilməsi, əhatə dairəsinin genişləndirilməsi və təyinat müddətinin artırılması bu sıradan olan tədbirlərdir. Bununla yanaşı, ünvanlı yardımın təyinatında şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin bu prosedurlarda daha fəal iştirakının təmin olunması bu gün vacib sayılan məsələlərdəndir.

Ünvanlı dövlət sosial yardımı yoxsulluq içində yaşayan ailələrə ünvanlı olaraq dövlət yardımıdır və bu baxımdan aztəminatlı ailələrin sosial risklərinin aradan qaldırılmasında təsirli vasitədir. Lakin, ünvanlı yardım ailələrə müvəqqəti dəstəkdir və insanlar üçün yoxsulluqdan qurtarmaq demək deyil. Hazırkı mərhələdə isə söhbət yalnız ifrat yoxsulluq vəziyyətinə düşmüş ailələrə müəyyən zaman çərçivəsində göstərilən sosial yardımla yanaşı həm də onların bu vəziyyətdən çıxarılma mexanizmlərin tətbiqindən getməlidir. Bu mənada ünvanlı dövlət sosial yardımı ilə bərabər, aztəminatlı ailələrə peşə və ixtisas təhsili, işlə təmin olunma və s. kimi tədbirləri nəzərdə tutan sosial reabilitasiya proqramlarının həyata keçirilməsi vacibdir.

*Elçin Bayramlı*

SON SƏHİFƏ
Səs
18 oktyabr
2022-ci il

# "El-Klassiko"da 106 ilin rekordu



"Real"ın futbolçusu Rodriqo yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, braziliyalı hücumçu 1916-cı ildən bəri "El-Klassiko"da penaltidən qol vuran ən gənc oyunçu olub. O, 21 yaş 280 günlüyündə bunu edib.

Buna qədər isə rekord "Real"ın əfsanəvi futbolçusu, Rodriqonun fərqləndiyi matçın keçirildiyi stadion adını daşıdığı Santyaqo Bernabeuya məxsus idi. Həm də "Real"ın prezidenti olmuş Bernabeu 22 yaş 150 günlüyündə "Barselona" ilə matçda penaltini qola çevirib.

Xatırladaq ki, ötən gün keçirilən "Real" - "Barselona" matçı Madrid klubunun 3:1 hesablı qələbəsi ilə başa çatıb.

# Sənəd itirənlər hara müraciət etməlidir?

"Bakı şəhərində Tapıntılar və Buraxılış Bürosu Daxili İşlər Nazirliyinin (DİN) müvafiq əmri ilə 2006-cı ildə BŞBPİ-yə bilavasitə tabe olan struktur hissə kimi yaradılmaqla fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə, DİN və BŞBPİ-nin hüquqi normativ aktlarına əsasən həyata keçirir. Büronun əsas vəzifəsi fiziki və hüquqi şəxslərdən daxil olan, tapılan əşya və sənədlərin qəbulu, uçotu, saxlanılması və sahiblərinə qaytarılmasından ibarətdir və qeyd olunan xidmətə görə dövlət rüsumu nəzərdə tutulmur. Büronun əməkdaşları tapılan əşya və sənədlərin saxlanılmasına cavabdehlik daşıyırlar. İtirilən sənəd və ya əşyalar barədə daxil olan müraciətlərə 10 gün müddətinədək, xüsusi yoxlama aparılması zəruri hesab edilməyən hallarda isə 3 iş günü ərzində baxılır və bu haqda onlara büro əməkdaşları tərəfindən imzalanan və möhürlə təsdiq edilən arayış verilir". Bu barədə SİA-nın sorğusuna cavab olaraq Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev məlumat verib.




Qurum rəsmisi açıqladı

Onun sözlərinə görə, tapılan əşyalar, adsız və ünvansız sənədlər 1 ay müddətində saxlanılır, həmin müddətdə sahibi aşkar edilmədikdə onlar tarixi, mədəni, maddi və digər dəyərlərindən asılı olaraq aidiyyəti üzrə təhvil verilir: "Şəxsi sənədlər (ümumvətəndaş pasportu, şəxsiyyət vəsiqəsi, hərbi bilet, tələbə bileti və sair) 1 ay müddətində saxlanılır və bu müddətdə sahibi müraciət etmədikdə ümumvətəndaş pasportları və şəxsiyyət vəsiqələri sahiblərinin qeydiyyatda olduğu ərazi polis orqanlarına, hərbi biletlər aidiyyəti üzrə səfərbərlik xidmətlərinə, tələbə biletləri, qiymət kitabçaları, təhsil diplomları və digər sənədlərin (xidməti vəsiqələr, təqaüd kitabçaları, plastik kartlar, sürücülük vəsiqələri və sair) sahiblərinə qaytarılması üçün təhsil müəssisələrinə, sahibinin qeydiyyatı üzrə yaşayış ünvanına, eləcə də müvafiq təşkilatlara göndərilir".

*Ayşən Vəli*

# Həftəsonu yol qəzalarında 7 nəfər ölüb

Həftəsonu yol qəzalarında 7 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, oktyabrın 15-16-da respublikanın avtomobil yollarında ölümlə nəticələnən 6 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 7 nəfər ölüb, 1 nəfər isə xəsarət alıb.

# Əhaliyə ŞAD XƏBƏR: Pandemiya bu tarixdə bitə bilər

Bir müddət öncə səhiyyə naziri Teymur Musayev Azərbaycanda koronavirusdan ölüm hallarının minimal səviyyədə olduğunu qeyd etdi. "Yoluxanlar hələ də var. Buna görə pandemiyanın sonuna doğru getdiyimizi bəyan edə bilərəm", - deyə o bildirib.




Məsələ ilə bağlı bu gün Trend-in suallarını cavablayan Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev bildirib ki, artıq pandemiyanın sona yaxınlaşmağı ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus da bənzər fikirləri qeyd edir.

"Hazırda Azərbaycanda pandemiyanın gedişatı da onu göstərir ki, yoluxma hallarının sayı minimuma enib və ciddi bir COVID-19 şikayəti ilə xəstə müraciəti də olmur. Yəni həm xəstəliyi keçirən insanların sayı azalıb, həm də yoluxanlar daha yüngül formada keçirir. Zamanla bu mövsümi xarakter almağa başlayacaq. Düşünürəm ki, artıq pandemiya bu ilin sonunda aktuallığını itirəcək", - mütəxəssis deyib.

## ELAN

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir**

Nəfəs və zərb alətləri kafedrası
**Dosent**

**İxtisas fortepiano kafedrası**
Professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Müəllim**

Fortepiano, orqan, klavesin kafedrası
Kafedra müdiri, pedaqoji elmlər namizədi
**Professor**
**Baş müəllim**

Musiqi tarixi kafedrası
**Baş müəllim**

**Musiqi nəzəriyyəsi kafedrası**
Kafedra müdiri, sənətşünaslıq namizədi
**Baş müəllim**

Solo oxuma və opera hazırlığı kafedrası
**Baş müəllim**

"Şifahi, ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi": orqanologiya və akustika elmi laboratoriyası
Aparıcı elmi işçi, sənətşünaslıq üzrə fəlsəfə doktoru
Elmi işçi

***Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.***
***Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.***
***Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***

# 28 yaşlı oğlan daşla öldürülüb

***Oktyabrın 16-ı saat 23 radələrində Beyləqan rayon sakini 1994-cü il təvəllüdlü Rahib Abbaslının aldığı xəsarətdən xəstəxanada ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Beyləqan rayon prokurorluğundan SİA-ya verilən məlumata görə, aparılmış araşdırmalarla zərərçəkmişin qohumu, 1991-ci il təvəllüdlü Nicat Əsədovun həmin gün saat 16 radələrində küçədə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı daş parçası ilə Rahib Abbaslının baş nahiyəsinə xəsarət yetirməsi nəticəsində sonuncunun almış olduğu xəsarətdən xəstəxanada ölməsinə əsaslı şübhələr müəyyən edilib.



Faktla bağlı Beyləqan rayon prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Nicat Əsədov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. İş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3600**